*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

7 aprel 2023-cü il
№13 (9021)

www.muallim.edu.az
muallim@edu.gov.az

## Aprel döyüşləri – Şanlı Zəfərə aparan yol



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrində Aprel zəfərinin yeddinci ildönümünə həsr olunmuş tədbirlər keçirilib.

Tədbirlərdə torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda şəhid olan vətən övladlarının, eləcə də aprel döyüşləri şəhidlərinin xatirəsi ehtiramla yad edilib. 2016-cı il aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatı keçirməsi və düşməni ağır məğlubiyyətə uğratması barədə şagirdlərə geniş məlumat verilib.

Qeyd edilib ki, Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük qayıdış" prosesinə start verilməsi olub. Bildirilib ki, Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirib. Bunun nəticəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı qələbə qazanılıb.

Tədbirlərdə şagirdlər bayraq, vətənpərvərlik mövzularında şeirlər söyləyib, mahnılar ifa edib və ədəbi-bədii kompozisiyalarla çıxış ediblər. Həmçinin Aprel döyüşlərində ordumuzun əks-hücumu zamanı əsgərlərimizin göstərdikləri şücaətlərdən bəhs edən videoçarxlar nümayiş olunub.

## Nəsillər nəzəriyyəsi...



Hələ orta əsrlərdən filosofları "atalar və oğullar" mövzusu çox düşündürmüşdür. Atalar və oğullar arasında olan anlaşılmazlıqlar, problemlər, bir-birlərini başa düşməmələri, ataların öz arzularını övladlarında reallaşdırmaq istəyi hər bir dövrdə nəsillər arasındakı fərqliliklərin göstəriciləridir.

Nəsillərin dəyişməsi, onların fərqliliklərinin öyrənilməsi məsələsi ilə sosioloqlar XIX əsrdə ciddi məşğul olmağa başladılar. Nəsillər - bir xronoloji zaman aralığında anadan olan, analoji şərtlərdə yaşayıb böyüyən ictimai insanlar qrupudur. Nəsillər nəzəriyyəsi - tarixdə zaman dövrlərinə xas olan xüsusiyyətlərin, həmçinin müəyyən xronoloji zaman aralıqlarında anadan olan insanların dünyagörüşünün təsviridir. Nəsillər nəzəriyyəsinin yaranmasına təsir edən amillərdən biri də, dünyada yaşanan iqtisadi "yelləncəkdir": stabillik, defolt, inflyasiya, yüksəliş, pandemiya və s. Hər bir zaman hadisəsindən sonra insanların adət etdikləri komfort səviyyəsi dəyişir, ixtisas sahələri yaranır və yox olur, cəmiyyətin nəyəsə tələbatı artır və ya azalır. Müəyyən xronoloji aralıqda hər bir dəyişiklik gənclərin həyata baxışlarının formalaşmasına təsir edir. Lakin əvvəlki nəslin dəyərlər sistemi dəyişməmiş qalır. Hər bir insanın şəxsiyyəti müxtəlif faktorların təsiri altında formalaşır: ailənin, sosiumun, gündəlik iş və yaşayış şəraitinin. Bir nəsildən olan insanları bəzi fundamental hadisələr əlaqələndirir.

⇨Ardı səh.7



**Heydər ƏLİYEV, Ümummilli Lider**

# Azərbaycan gəncləri orduda xidmət etməyi öz şərəfli borcları hesab etməlidirlər

**Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir**

Təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Amma bununla yanaşı, təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun.

Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Böyüməkdə olan nəslin mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyət kimi formalaşdırılması bu gün cəmiyyətimiz qarşısında duran çox mühüm vəzifədir. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir.

Azərbaycan gəncləri orduda xidmət etməyi öz şərəfli borcları hesab etməlidirlər... Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik.

## Məktəbdə psixoloji xidmət: səlahiyyət və məsuliyyət faktoru



Ümumtəhsil məktəblərində psixoloji xidmət XX əsrin 80-ci illərinin sonlarında ortaya çıxmışdır. Məktəbdə psixoloji xidmət psixoloqun təlim-tərbiyə işinin keyfiyyətini yüksəltmək məqsədi ilə həyata keçirilən praktik fəaliyyət formasıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 157 nömrəli qərarı ilə "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları" adlı sənədin təsdiq edilməsinin davamı olaraq məktəblərdə psixoloji xidmətin keyfiyyətinin artırılması istiqamətində müxtəlif layihələr həyata keçirilmiş və tədqiqatlar aparılmışdır. Psixoloji xidmət işinin səmərəliliyinə psixoloqun təhsil prosesinin bütün iştirakçıları: müəllimlər, şagirdlər və onların valideynləri ilə qarşılıqlı əlaqəsi təsir göstərir.

⇨Ardı səh.12

## BU SAYIMIZDA

### Azərbaycanlı gənc Almaniyada növbəti uğura imza atdı




Gənc nəslin elmi-texniki sahədə inkişafına dəstək vermək məqsədilə dünyadakı texnoloji yeniliklərin elmdə tətbiqinə əsaslanan layihələrdən biri də dünyanın bir sıra ölkələrində keçirilən "FameLab" (Şöhrət Laboratoriyası) layihəsidir. Bu, elmi auditoriya çərçivəsindən çıxararaq əyləncəyə çevirmək, eləcə də elm və texnologiyaya böyük həvəsi olan gəncləri öz maraqlarını ictimaiyyətlə bölüşməyə ruhlandırmaq məqsədilə təşkil olunan yarışmadır. "Danışan Elm" şüarı ilə keçirilən yarışmanın məqsədi gənclərdə elmə olan marağı artırmaq, gənc alimlərə dəstək verməkdir.

səh.2

### Məktəb icması haqqında pedaqoji düşüncələr



Müasir məktəb anlayışı bu gün bizi onun daimi inkişafda olan bir müəssisə kimi xüsusiyyətləri barədə düşünməyə vadar edir. Çünki onun bütün zamanlarda cəmiyyətin ehtiyac və tələbatlarına cavab verə bilməsi ciddi pedaqoji problem olaraq düşüncə obyektinə çevrilir. Bəzən məktəbi müəyyən zaman kəsiyində cəmiyyətdən təcrid olunmuş şəkildə təqdim etməyə çalışanlar da tapılır. Onu daha çox ayrıca götürülmüş bir obyekt olaraq formalaşdırmaq, inkişaf etdirmək barədə düşünülür. Əlbəttə, bu nə qədər faydalı görünsə də, əslində məktəbin real cəmiyyət müstəvisində olması, daha doğrusu, məktəbin özünün cəmiyyət, onun özü olması fikri ilə tərs mütənasiblik təşkil edir.

səh.4

### Türk alimlər Nobel mükafatına bir addım da yaxınlaşdılar



Almaniyanın nüfuzlu elmi mükafatlarından hesab olunan Meyenburg mükafatı bu il biotexnologiya şirkəti olan "BioNTech"in qurucusu və icraçı direktoru, Mayns Universitetinin III Tibb Klinikasının eksperimental onkologiya üzrə professoru Uğur Şahinə, xanımı, "BioNTech"in həmtəsisçisi, Mayns Universitetinin professoru Özlem Türeciyə, eləcə də Pensilvaniya Universitetinin (ABŞ), Szeged Universitetinin (Macarıstan) immunologiya professoru Katalin Karikoya təqdim olunub. Tədqiqatçılar bu mükafata xərçəngə qarşı peyvəndlərin və immunoterapiyaların hazırlanmasında böyük töhfələrinə görə layiq görülüblər.

səh.9

# Elm və təhsil naziri Göygöldə vətəndaşları qəbul edib





Martın 31-də elm və təhsil naziri Emin Əmrullayev Göygöldə vətəndaş qəbulu keçirib. Qəbulda Göygöl, Gəncə, Naftalan, Daşkəsən, Goranboy, Samux, Kəlbəcər və Xocalı sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar, əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, tələbələrin köçürülməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Nazir Göygöldə 5 nömrəli məktəbdə olub






## Emin Əmrullayev məktəbdə yaradılmış şəraitlə tanış olub müəllim və şagirdlərlə görüşüb

Martın 31-də elm və təhsil naziri Emin Əmrullayev Göygöl şəhəri E.Vəliyev adına 5 nömrəli tam orta məktəbi ziyarət edib.

Əvvəlcə məktəbin foyesində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Daha sonra icmaəsaslı məktəbəqədər təhsil qrupu, peşə təmayüllü siniflərdə tədris və məktəbdə yaradılmış şəraitlə tanış olan Emin Əmrullayev müəllim və şagirdlərlə görüşüb, onlarla söhbət edib.

Bildirilib ki, məktəb binası 2006-cı ildə tikilərək istifadəyə verilib. Hazırda məktəbdə 900-dən çox şagird təhsil alır.

# Xaricdə doktorantura təhsilinə dair sənəd qəbulunun müddəti uzadılıb




"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə doktorantura təhsili ilə bağlı sənəd qəbulunun müddəti 20 aprel 2023-cü il saat 23:59-dək uzadılıb.

Proqrama müraciət üçün tələb olunan sənədlərin siyahısı *(https://dp.edu.az/az/news/1203#.ZC62GLjri9L)*, elana dair ətraflı məlumat *(https://dp.edu.az/az/content/62)* və qeydiyyat linki *(https://app.dp.edu.az/intro/)* müvafiq keçidlərdən əldə oluna bilər.

Əlavə sual yarandığı zaman "Mütəmadi verilən suallar" bölməsinə və ya *dpinfo@edu.gov.az* elektron poçt ünvanına müraciət edə bilərsiniz.

# Lütfi Zadə adına məntiq olimpiadası və məktəblilərarası fənn müsabiqələri keçiriləcək

Aprelin 30-da Lütfi Zadə adına məntiq olimpiadası və məktəblilərarası fənn müsabiqələrinin ilkin mərhələsi keçiriləcək. Müsabiqələrdə iştirak üçün onlayn qeydiyyat prosesinə yaxın günlərdə start veriləcək.

VI sinif şagirdləri riyaziyyat və informatika, VII sinif şagirdləri fizika, kimya və biologiya fənləri üzrə müsabiqələrdə iştirak edə bilərlər. Lütfi Zadə adına məntiq olimpiadası isə V sinif şagirdləri arasında keçirilir.

Qeyd edək ki, müsabiqələrin keçirilməsinin məqsədi məktəblilər arasında sağlam rəqabət mühitinin yaradılması, şagirdlərin məntiqi biliklərinin inkişafına təkan vermək, yaradıcı istedad və fərqli düşünmə qabiliyyəti ilə fərqlənənləri aşkara çıxarmaq, onlarla məqsədyönlü işlərin aparılmasından ibarətdir.

Müsabiqələrin növbəti mərhələlərinin may və iyun aylarında keçirilməsi planlaşdırılır.

# Qazaxıstanda təhsil imkanı



Qazaxıstan Elm və Ali Təhsil Nazirliyinin 2023-2024-cü tədris ili üzrə Azərbaycan vətəndaşları üçün təqaüd proqramına müraciət davam edir. Proqrama müraciət üçün son tarix 30 aprel 2023-cü ildir.

Proqram hər iki ölkənin vətəndaşlarına tələbə mübadiləsi əsasında qarşı ölkənin ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələri üzrə təhsil almaq imkanı yaradır.

Ətraflı məlumatı elan *(https://htp.edu.az/uploads/fileuploads/2023/03/104f9f2548b24bda850b33f46f5f6fa5.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# "Danışan Elm"

## Azərbaycanlı gənc Almaniyada növbəti uğura imza atdı

Gənc nəslin elmi-texniki sahədə inkişafına dəstək vermək məqsədilə dünyadakı texnoloji yeniliklərin elmdə tətbiqinə əsaslanan layihələrdən biri də dünyanın bir sıra ölkələrində keçirilən "FameLab" (Şöhrət Laboratoriyası) layihəsidir.




Bu, elmi auditoriya çərçivəsindən çıxararaq əyləncəyə çevirmək, eləcə də elm və texnologiyaya böyük həvəsi olan gəncləri öz maraqlarını ictimaiyyətlə bölüşməyə ruhlandırmaq məqsədilə təşkil olunan yarışmadır. "Danışan Elm" şüarı ilə keçirilən yarışmanın məqsədi gənclərdə elmə olan marağı artırmaq, gənc alimlərə dəstək verməkdir.

Almaniyanın Baden-Württemberg vilayətinin Karlsruhe şəhərində keçirilən "FameLab" (Şöhrət Laboratoriyası) müsabiqəsində iştirak edən gənc tədqiqatçı Aysel Əhədova həm Münsiflər Heyətinin rəyi ilə I yeri qazanıb, həm də səsvermə yolu ilə tamaşaçı rəğbəti nominasiyasında qalib olub.

FameLab dünyanın aparıcı elmi kommunikasiya müsabiqəsidir. İştirakçılara münsiflərdə maraq oyatmaq və məzmunu, aydınlığı və xarizması ilə seçilən elmi məruzə ilə diqqəti cəlb etmək üçün cəmi üç dəqiqə vaxt verilir. Münsiflər heyətini inandırmaq üçün iştirakçıya faktiki olaraq düzgün, eyni zamanda asan başa düşülən və hər şeydən əvvəl elm və zəkanın düzgün qarışığını ehtiva edən mühazirə lazımdır.

Gənc tədqiqatçı "Azərbaycan müəllimi"nə FameLab layihəsi barədə aşağıdakıları bildirdi:

- Elmi layihəni 3 dəqiqə ərzində tamaşaçıya çatdırmaq FameLab müsabiqəsinin əsas şərtidir. Bunun üçün Powerpoint-dan yox, sadəcə özünlə səhnəyə götürə biləcəyin əşyalardan istifadə etmək olar. FameLab-ın əsas hədəfi elm kommunikasiyasını (Science Communication) aşılamaq və mürəkkəb elmi mövzuları asan və əyləncəli bir yolla geniş tamaşaçı kütləsinə izah etməkdir. Bu müsabiqədə çox ölkələr iştirak edir. Almaniya öz təmsilçisini seçmək üçün ölkənin 4 bölgəsində FameLab müsabiqəsi keçirdi.

Mənim çıxışımın mövzusu "İrsi xərçəngə qarşı peyvənd" - "DNT təmiri - kiçik səhvlərin böyük nəticələri" idi. Hazırda Heidelbergdə Universitet-Hospitalda və DKFZ-də (Alman Xərçəng Tədqiqatı Mərkəzi) işləyirəm. Regional turun qalibləri finalda, final qalibi isə ölkələrarası finalda çıxış hüququ qazanır. Bundan əlavə, qaliblər seminarlara qatıla və treyninqlərdə iştirak edə bilərlər.

Qeyd edim ki, FameLab-ın bir əsas məqsədi də gənclərdə elmə qarşı həvəs yaratmaqdır.

Aysel Əhədova 1988-ci ildə Bakı şəhərində anadan olub. 1994-2005-ci illərdə Bakı Avropa Liseyində təhsil alıb. 2005-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin tibbi-biologiya fakültəsinə daxil olan Aysel təhsilini 2011-ci ildə müvəffəqiyyətlə bitirib. Tələbəlik vaxtı elmi tədqiqatlarla məşğul olub və müxtəlif tələbə təşkilatlarının konfranslarında iştirak edib. İFMSA (International Federation of Medical Students Associations)-nın Azərbaycandakı təmsilçiliyi- AzerMDS ilə tanış olmuşdur. 2011-ci ildə İFMSA (International Federation of Medical Students Associations) təşkilatının Research Exchange Mübadilə Programında iştirak edib və Avstriyanın paytaxtı Vyanada yerləşən Mərkəzi Hospitalda bir aylıq tədqiqat təcrübəsi əldə edib. Daha sonra Almaniyanın Mannheim Universitet Klinikasında tibbi təcrübə şansı qazanıb. 2012-ci ildə DAAD-ın 3 illik təqaüdünü qazanaraq xərçəng tədqiqatı sahəsində işləmək arzusunu həyata keçirmək üçün Almaniyaya yollanıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2012-2015-ci illərdə Heydelberq Universitetinin tibb fakültəsində doktorantura (PhD) təhsili alıb, professor Knebel Deberitsin rəhbərliyi ilə doktorluq dissertasiyası üzərində işləyib. 2015-ci ildə doktorantura imtahanını müvəffəqiyyətlə verib və həmin institutda elmi işçi vəzifəsində çalışmağa başlayıb.

2020-ci ildə Heydelberq Universitetinin fəxri senatoru, professor Fridrix Roytner və onun həyat yoldaşı Anita Roytner tərəfindən təsis olunan "Anita və Fridrix Roytner mükafatı"na layiq görülüb. Bu mükafat Heydelberq Universitetinin gənc alimlərinə xüsusilə klinik cəhətdən əhəmiyyətli tədqiqat layihələrinə görə təqdim olunur.

O, fəlsəfə doktoru kimi qeyri-sabit mikrosatellit tipli xərçəngin öyrənilməsi üzrə bir neçə layihədə iştirak edib və xərçəng hüceyrələrində qlükoza metabolizminə yönəlmiş yeni dərmanların, dərman kombinasiyalarının identifikasiyası üzrə tədqiqatlar aparıb. Hazırda A.Əhədova öz elmi tədqiqatlarını dünyada ən çox rastlanan irsi xərçəng sindromu, Lynch (Linç) sindromunun araşdırılmasına, tez aşkarlanmasına və qarşısının alınmasına həsr edir. Bundan əlavə, o Linç sindromu haqqında fərqli bilik aşılamaqla və elmin geniş auditoriyaya asan dillə çatdırılması ilə məşğuldur.

Qeyd edək ki, 2007-2021-ci illər arasında British Council dünyanın 30-dan çox ölkəsində "FameLab International"-a dəstək verməklə layihənin qloballaşmasına kömək edib.

Gənc tədqiqatçıya elmi araşdırmalarında bol uğurlar arzulayırıq.

**Oruc MUSTAFAYEV**

# Magistr hazırlığı istiqamətində ADPU-da görülən işlər universitetin brend istiqamətlərindən biridir

## Magistrantların VI Respublika elmi konfransı keçirildi

Aprelin 6-da Azərbaycan Dövlət Pedaqoji Universitetində magistrantların ənənəvi Respublika elmi konfransı öz işinə başlayıb. Bakı Dövlət Universitetinin, Azərbaycan Dillər Universitetinin, Bakı Slavyan Universitetinin, Sumqayıt Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin, Mingəçevir Dövlət Universitetinin magistrantları, eləcə də Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində ölkəmizdə təhsil alan çinli magistrantların iştirakı ilə təşkil edilən müzakirələr "Təhsildə strateji idarəetmə və müasir yanaşmalar" mövzusunda qurulub. Bu gün də davam edəcək konfrans Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.





Konfransda çıxış edən ADPU-nun rektoru Cəfər Cəfərov qeyd edib ki, indiyədək "Elm günü"nə həsr olunan magistrantların elmi konfransı bu il ilk dəfə ənənəsindən kənara çıxdı. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə Pedaqoji Universitetdə altıncı dəfə keçirilən Magistrantların Respublika elmi konfransı da Azərbaycan xalqının Ümummilli Lideri, dahi rəhbər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub.

C.Cəfərov xüsusən dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında baş verən keyfiyyət dəyişikliklərinə toxunaraq müasir Azərbaycanın qurucusunun rəhbərliyi ilə təhsil sahəsində aparılan işlərdən danışıb. Dahi şəxsiyyətin başladığı və müasir dövrdə də davam edən inkişafın nəticəsidir ki, Azərbaycan Dövlət Pedaqoi Universiteti elm və təhsilimizin inkişafına öz töhfələrini verməyə çalışır: "Son illərdə aparılan islahatlar, həyata keçirilən yeniliklər, layihələr doğma universitetimizin yeni inkişaf mərhələsinə daxil olmasına şərait yaradıb. Artıq fəaliyyətimizi müasir dünyanın çağırışlarına uyğun qurmalıyıq. Ona görə də magistrantlarımızın üzərinə böyük məsuliyyət düşür. Magistrantlarımız daim öz üzərlərində çalışmalı, bilik və bacarıqlarını artırmalı, müasir rəqəmsal bilikləri, aparıcı xarici dilləri dərindən öyrənməli, vətənpərvər olmalıdırlar".

Rektor magistratura və doktorantura səviyyələrində dövrün tələblərinə uyğun yeni nəsil mütəxəssislər hazırlanması işini təkmilləşdirmək məqsədi ilə ardıcıl tədbirlərdən və onun nəticələrindən danışıb: "Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində 22 ixtisas üzrə 26 ixtisaslaşmada 684 nəfər magistratura səviyyəsində təhsil alır. MBA proqramı üzrə "Təhsilin təşkili və idarə olunması" və "Təlim və tədrisin təşkili və metodikası (SABAH)" magistratura ixtisaslaşmaları üzrə bu il ilk buraxılışlar olacaq. Menecment (təhsilin təşkili və idarə olunması) ixtisaslaşması üzrə ABŞ-ın Corc Vaşinqton Universiteti ilə həyata keçirdiyimiz ikili diplom proqramı üzrə ilk buraxılışımız isə ötən il oldu".

Konfransın builki mövzusunun da universitetdə kadr hazırlığına başlanan yeni ixtisaslardan qaynaqlandığını əsaslandıran rektor yeni istiqamətlərin daha da genişləndiriləcəyini bildirib: "Əvvələr universitetimiz, sadəcə müəllim hazırlığı ilə məşğul olurdu. Artıq həm də təhsilin idarə edilməsi, qiymətləndirilməsi və dünyada qəbul olunmuş başqa istiqamətlər üzrə də işlərə başlamışıq və bu prosesi daha da sürətləndirəcəyik. "Təhsilin keyfiyyəti" anlayışının sürətlə dəyişdiyi bir dövrdə yeni təfəkkür tərzinə malik şagirdlərin yetişdirilməsində ali təhsil müəssisələrinin gənc tədqiqatçıları və gənc müəllimlərimizin üzərinə böyük məsuliyyət düşür. Bu cür konfranslarda dövrün ən son problemləri müzakirəyə çıxarılmalı, magistr dissertasiya mövzularında ən aktual məsələlər elmi müzakirəyə cəlb olunmalıdır".







Fizika-riyaziyyat elmləri doktoru, ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov Heydər Əliyevin hakimiyyətə gəlişindən sonrakı illərdə elm, təhsil sahələrində gedən inkişafa diqqət çəkib: "1970-ci ildən başlayaraq Azərbaycana gərəkli, lakin hazırlanması çətin olan ixtisaslar üzrə mütəxəssis hazırlığında yeni dövr başlandı. SSRİ-nin ən qabaqcıl elm və təhsil mərkəzlərində, universitetlərində təhsil almağa ən istedadlı azərbaycanlı gənclərin göndərilməsini mühüm əhəmiyyətə malik bir hadisə kimi qiymətləndirmək lazımdır. Əgər 1969-cu ildə Azərbaycandan bu məqsədlə göndərilənlərin sayı təxminən 50 nəfər idisə, 1982-ci ildə bu göstərici 1200-dən çox oldu. Bu siyahıda respublikamızın ali məktəblərinin yuxarı kurslarından göndərilənləri, stajkeçməyə, təkmilləşməyə, aspiranturaya və doktoranturaya göndərilənləri də nəzərə alsaq, bu göstərici hər il üçün 1500-ə çatırdı".

Prorektor Ulu Öndərin elmə töhfəsini də rəqəmlərlə göstərib: "Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə elmlər doktoru və elmlər namizədlərinin sayı 1.7 dəfə artıb. Həmin dövrdə elmi-texniki tərəqqini müəyyən edən ixtisaslar, xüsusilə elmlərin qovşağında olan nadir ixtisaslar sahəsində alimlərin sayının artması da qürurvericidir".

Müasir təhsilin problemlərinə də toxunan A.Zamanov çıxışında ADPU-da magistr hazırlığına yer ayırıb: "Magistr hazırlığı istiqamətində ADPU-da görülən işlər universitetimizin brend istiqamətlərindən biridir".

Prorektor deyib ki, universitetdə yaradılan təhsil menecimenti kafedrasında əsaslı işlər görülür: "Hər qurumun uğuru rəhbərindən asılıdır. İndiyə qədər bu sahəyə diqqət edilməyib. Artıq ADPU-da təhsil müəssisələri üçün idarəedici kadrlar hazırlanır. Həmin kadrlar təhsil menecmenti kafedrasında idarəetmə təcrübəsi keçirlər. Bu konfransın təşkilində də məhz həmin magistrantlar fəallıq göstəriblər".

Magistrantlar üçün universitetdə yaradılan şərait də önəmlidir. "Magistrant öz dissertasiya işinin nəticələrinə həsr edilən elmi məqalə çap etməlidir. Bu şəraiti yaratmaq üsullarından biri də məhz bu konfransdır", - deyən prorektor 2021-ci ildə ilk dəfə magistratntlar üçün təsis edilən "Magistrant" jurnalının fəaliyyətinə toxunub: "Jurnalın redaksiya heyətində Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Nerft və Sənaye Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universitetinin nümayəndələri - professor-müəllimləri, tanınmış mütəxəssislər təmsil olunur. Magistrantdan çap tələb edir və bunun üçün onlara şərait yaradırıq. Jurnalda ancaq magistrantların işi dərc olunur".

İndiyədək keçirilən konfransların materiallarının çap olunduğunu qeyd edən prorektor Magistrantların 6-cı konfransında təşkil edilən Sərgidə əvvəlki illərin materiallarının və "Magistrant" jurnalinin işıq üzü görmüş artıq 8 nömrəsinin də sərgiləndiyini deyib: ""Magistrant" jurnalının hər il 4 nömrəsi çap olunur. Jurnalda həm də başqa universitetlərdə, o cümlədən xarici ölkələrin universitetlərində təhsil alan magistrantlar çap olunur. Fəaliyyətinin genişlənməsini nəzərə alaraq dövri nəşrin sayını 6-ya çıxaracağıq. Bu il üçün artıq 2 sayı nəşr olunub və bu, uğurlu nəticədir".

Konfransda ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri professor Ramiz Əliyev, Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri professor Müseyib İlyasov, Analitik və üzvi kimya kafedrasının müdiri professor Əli Zalov çıxış ediblər. Çıxışçılar dahi şəxsiyyətin elm və təhsil sahəsində həyata keçirdiyi fəaliyyətə xüsusi yer ayırıblar.

Təhsildə strateji idarəetmə, İnnovasiyalar və təhsilin keyfiyyəti, Təhsildə sosial-psixoloji xidmət, Tədrisin müasir problemləri elmi bölmələrində müzakirələr bu gün də davam edir.

Yekunda elmi məruzələr seçiləcək və topluya daxil ediləcək, tezislər konfrans materiallarında nəşr olunacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# Qızların təhsilinə dəstək istiqamətində əməkdaşlıq perspektivləri müzakirə edilib




## "Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndələri Təhsilin İnkişafı Fondunda olublar

"Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin səfiri Leyla Seyidzadə və təşkilatın təhsil proqramları üzrə tərəfdaşı Leyla Hacıyeva Təhsilin İnkişafı Fondunun qonaqları oldular.

L.Seyidzadə təşkilatın fəaliyyəti və layihələri barədə ətraflı məlumat verdi. Bildirildi ki, "Women in Tech" təşkilatı Azərbaycan daxil olmaqla 50-dən çox ölkədə qadınların İKT sahəsində təşəbbüslərinin reallaşmasına dəstək göstərir.

Fondun İdarə Heyətinin sədri Elnur Nəsibov Fondun məqsədləri, fəaliyyət istiqamətləri və gələcək hədəfləri barədə məlumat verdi.

Görüşün gedişatında "Women in Tech" təşkilatı və Təhsilin İnkişafı Fondu arasında qızların təhsilinə dəstək istiqamətində əməkdaşlıq perspektivləri müzakirə olundu.

# UNESCO kafedraları ilə əlaqədar məlumat sessiyası

Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə 20-dən çox ali təhsil müəssisəsinin nümayəndələri üçün UNESCO kafedraları ilə əlaqədar onlayn məlumat sessiyası keçirilib.

Məlumat sessiyasında Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi səfir Elman Abdullayev iştirak edib.

Görüşdə səfir Elman Abdullayev iştirakçılara UNESCO kafedralarının fəaliyyəti, müraciət forması və qaydası, UNITWIN şəbəkəsinin əhəmiyyəti haqqında məlumat verib, iştirakçıların suallarını cavablandırıb.



# Tələbələr Təhsil Tələbə Krediti Fondunun fəaliyyəti barədə məlumatlandırılıb

Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri Bakı Dövlət Universitetinin (BDU) beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri ilə görüşüblər.

Görüşdə Fondun nümayəndəsi Ağca Məmmədova təqdimatla çıxış edib. O, tələbələrə Fondun fəaliyyəti və təhsil tələbə kreditinin verilməsi qaydaları barədə ətraflı məlumat verib. Bu layihənin sosial müdafiəsi zəif olan tələbələrə dəstək məqsədi daşıdığını vurğulayıb, tələbələri dövlətin yaratdığı imkandan yararlanmağa çağırıb.

Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, TTFK-nin əsas missiyası təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır.



# Məktəb icması haqqında pedaqoji düşüncələr

## Müasir məktəb və onun sabahı

Müasir məktəb anlayışı bu gün bizi onun daimi inkişafda olan bir müəssisə kimi xüsusiyyətləri barədə düşünməyə vadar edir. Çünki onun bütün zamanlarda cəmiyyətin ehtiyac və tələbatlarına cavab verə bilməsi ciddi pedaqoji problem olaraq düşüncə obyektinə çevrilir. Bəzən məktəbi müəyyən zaman kəsiyində cəmiyyətdən təcrid olunmuş şəkildə təqdim etməyə çalışanlar da tapılır. Onu daha çox ayrıca götürülmüş bir obyekt olaraq formalaşdırmaq, inkişaf etdirmək barədə düşünülür. Əlbəttə, bu nə qədər faydalı görünsə də, əslində məktəbin real cəmiyyət müstəvisində olması, daha doğrusu, məktəbin özünün cəmiyyət, onun özü olması fikri ilə tərs mütənasiblik təşkil edir. Ona görə də müasir məktəbə müasir dövrün atributu kimi yanaşmaq, onu daha çox innovasiyaların mərkəzində, cəmiyyətin inkişafının nüvəsində, yaxud gələcəyə istiqamətlənmiş fəaliyyətlərin leytmotivində qiymətləndirmək lazımdır.

Biz bu gün cəmiyyətin mərkəzində dayanmaqla məktəbin böyük bir cəmiyyət hadisəsinə çevrilməsindən danışırıq. O, daim özünün mövqeyində bir maraqlılıq nümayış etdirməklə fərqliliyini sübut etməli, obyektivlik nümayiş etdirməklə qüdsiyyətini göstərməlidir. Ən başlıcası, görkəmində təhsil texnologiyaları ilə müşayiət olunan bir müasirliyin məzmununda düşüncə və idrakı əks edən bir təhsil ocağının mücəssəməsinə çevrilməlidir.

Çünki o, cəmiyyətin aparıcı qüvvəsi kimi uşaqların fəaliyyətini təşkil etməklə onların inkişafına xidmət göstərir. İstər idrakı, istər hissi emosional, istərsə də psixomotor cəhətdən onların formalaşmasını tənzimləyir.

Dünyada yeniliklərin artması, informasiyaların çoxalması özlüyündə mürəkkəbliklər yaradır. Əslində, bu mürəkkəbliklər özünün çətinlikləri ilə meydana çıxır ki, zaman-zaman bu çətinliklərdən yaxa qurtamaq, onu dəf eləmək üçün insanlar müxtəlif tədbirlər görməyə məcbur olurlar. Bu gün belə tədbirlərdən biri kimi dövrün çağırışlarına müraciət olunur. Belə çağırışlarla bəzən bütöv bir əsrin çətinliklərinə aydınlıq gətirmək istəyi yaranır. Bunun üçün şablonlardan qaçmaq, daha çox yaradıcı olmaq tələb edilir. Məşhur Amerika filosofu Ken Robinson “Ağlımdan kənar” adlı kitabında yazır ki, “Dünya nə qədər mürəkkəbləşirsə, onun çağırışlarına cavab vermək üçün bir o qədər yaradıcı olmalıyıq”. Əks halda, fəaliyyətimizdə yanılar, problemlərin düzgün həll yolunu tapa bilmərik. Bu keyfiyyətləri isə yalnız məktəbdə qazanmaqla uğurlara nail ola bilərik. Bu yolda yardımçımız təfəkkür məktəbləri ola bilər.

Biz sabahın məktəbini yalnız düşüncə, təfəkkür məktəbi kimi təsəvvür edirik. Yeri gəlmişkən, bu, həm də inkişaf konsepsiyasında göstərildiyi kimi, bizi gələcəyimizlə bağlayan və təhsil siyasətimizin əsasını təşkil edən paradiqmalardan biridir.

Bəs onda ictimaiyyətin nəzərində yaxşı məktəb hansıdır? Elm və təhsil naziri Emin Əmrullayevin müsahibələrinin birində bu suala cavabı belə olmuşdur: “Məktəb indikatoru şagirdlərinin topladığı bal deyil, yetişdirdiyi keyfiyyətli, ölkənin inkişafına töhfə verən insandır”. Ulu Öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və hazırda da uğurla inkişaf etdirilən müstəqil Azərbaycanın və onun təhsil quruculuğu işinin, xüsusən də ümumi təhsil sahəsində fəaliyyətlərin əsas fəlsəfəsini təşkil edən bu fikir prioritet xarakteri ilə daha müasir məktəbi keyfiyyət baxımından simvolizə etməklə əsl dəyər ölçüsünə çevrilir. Əslində reallıqlarımızdan irəli gələn bu fikir qarşımızda ciddi vəzifələr qoyur.

Hazırkı zamanda şagirdləri öz imkanları ilə qarşılaya bilən və onların marağını stimullaşdıran məktəblərin yaradılması təhsil fəaliyyətimizin əsasında durur. Zatən uşaqlar məktəblərinə müəllimlərini sevdikləri kimi daha yüksək münasibət bəsləyir, hər an orada olmaqlarından fərəh hissi keçirirlər. Məktəblərindən böyük məhəbbət hissi ilə danışır, dostları ilə birlikdə orada olmağa tələsirlər. Hər zaman sevimli və mehriban müəllimlərinin söhbətlərindən, diqqət və qyğısından məmnun qalır, onlara məsləhət yeri kimi yanaşırlar.

Ona görə də məktəb bütün fəaliyyətində şagirdlərinin etimadını doğrultmalı, öz növbəsində, ona bütün imkan və şəraitləri ilə cavab verməlidir. Eyni zamanda cəmiyyəti təmsil edən və onun kiçik bir modeli olan qurum kimi şagirdin maraq dünyasının sehrli aləminə çevirilməlidir.



**Ənvər ABBASOV,**

*Bakı Slavyan Universitetinin prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

### Məktəb icması nədir?

İcma ərəb sözü olub lüğəvi mənası “bir neçə obadan ibarət dairə”, “ittifaq”, başqa sözlə, “cəm olmaq” deməkdir. Bu söz Azərbaycan dilinin lüğət tərkibində olsa da, son dövrlərdə daha geniş miqyasda işlənməyə başlamışdır. Bu da xarici ölkələrdə mədəniyyət, təhsil və digər əlaqələr şəraitində meydana çıxmış və hazırkı vaxta qədər istifadə olunmaqdadır. Çünki xarici ölkələrin təhsil sistemi daha çox demokratik əsaslar üzərində qurulduğundan təhsil müəssisələri ilə cəmiyyət arasında baryerlər götürülmüş, bütün qüvvələr uşaqların inkişafına yönəlmişdir. Hər kəs özlüyündə cəmiyyət üzvü olaraq bunu başa düşdüyündən məktəblərin və məktəbəqər təhsil müəssisəslərinin fəaliyyətinə yaxından kömək göstərməyə çalışır. Məktəb özü də valideynlərdən ibarət qarşılıqlı münasibətdə olduğu tərəfdaşı ilə sıx əlaqələrin saxlanılmasına maraq göstərir. Valideynlərlə əlaqələri gücləndirir. Üşaqların hər birinin valideyni ilə müsahib olmağa maraq nümayiş etdirir.

Məlum olduğu kimi, təhsil sistemi qapalı bir sistem deyil. Davamlı olaraq baş verən dəyişikliklər hesabına özünü ifadə etməklə, kəmiyyət və keyfiyyət baxımından yeniləşməklə və daim dəyişməyə qadir olmaqla cəmiyyətlə münasibətdə açıqdır. Müasir şəraitdə onun şagirdyönümlü, tələbəyönümlü olması çeviklik və dinamizm kimi xüsusiyyətlərini artırır. Sosial sistem kimi deferensiallaşmağa və dəyişməyə açıq olan xidmətlər mühitinə çevrilir. Belə ümumi təhsil mühiti təhsil alanların fəaliyyətini məhdudlaşdırmır. Əksinə, onların fəaliyyət imkanlarını genişləndirməklə stimullaşdıra bilmək imkanı qazanır.Üzərinə düşən vəzifələri icra etmək məqsədi ilə maraqlı olan tərəflərlə - valideyn təşkilatları və əlaqəli olan digər təşkilatlarla tərəfdaşlıq müstəvisində mükəmməl bir birlik yaradır. Hər bir məktəbin belə bir birlik yarada bilməsi onun potensial qüvvəsinə çevrilərək ümumi fəaliyyətindəki irəliləyişləri təmin edir. Əslində bu birgə fəaliyyət etibarı ilə məktəb şurası formasında genişlənməkdə davam edir. Düzgün olaraq son araşdırmalarda da məktəb icması məktəb həyatını daha maraqlı etmək üçün müəllim, valideyn və şagird arasında yaradılmış sıx əməkdaşlıq hesab edilir. Eyni zamanda məktəb icmasına məktəblə bağlı insanların toplusu kimi baxılır. Nəzərə alınır ki, məktəb icması olan yerdə valideynlər məktəblə yaxından tanış olmağa imkan tapa bilir, bu prosesin fəal iştirakçısına çevrilirlər. “Birlikdə öyrənirik,iştirak edirik və istirahət edirik” devizi altında birləşə bilirlər.

### Niyə məhz məktəb icması?

Dünyanın sürətli inkişafı, məlumatların çoxluğu və həyatı fəaliyyətlərin intellektual əsasda yüksəldiyi bir dövrdə təhsilin zəruri bilik, bacarıq və səriştələr əsasında keyfiyyətlə qurulmasını tələb edir. Bu, artıq məktəbin vəzifələrinin yerinə yetirilməsində yeni yanaşmaların tədbiqini, bu zaman təhsil nailiyyətlərinin yüksəldilməsində valideynlərlə, eləcə dəməktəbdən kənarda əlaqəli təşkilatlarla işinin yenidən qurulmasını tələb edir. Bu zaman məktəblərin, ailə, məktəb və digər yerli qurumlarla - ali təhsil müəssisələri, dövlət, səhiyyə, sosial xidmət təşkilatları və sairlə qarşılıqlı tərəfdaşlıq fəaliyyətinin olması vacib şərt kimi qarşıya qoyulur. Göründüyü kimi, tərəfdaşlıq fəaliyyətinə inkişafımızın yeni mərhələsində vəzifələrin yerinə yetirilməsi məqsədilə artan məsuliyyətin bölüşdürülməsi, hesabatlılığın nəzərə alınması kimi yanaşılır.

### İcma məktəbləri ABŞ təcrübəsində

Dünya təctübəsində icma məktəblərinin maraqlı təcrübələri ilə qarşılaşmaq mümükündür. Belə ki, ABŞ-da yaradılmış İcma Məktəbləri Koalisiyası icma məktəblərini məktəb və digər icma resursları arasında həm məkan, həm də tərəfdaşlıq baxımından müəyyən edir. Bu əməkdaşlıq bir çox icma məktəblərindən həftənin altı günü səhərdən axşama qədər il boyu açıq qalmağı tələb etməklə onların icma üzvlərinin ailə ehtuyaclarına cavab verən, pedaqoqların əlaqə qura bildiyi məhəlli mərkəzinə çevrilməsinə imkan yaradır. Bu yüksək tərəfdaşlıq mədəniyyəti keyfiyyətli təlim verən məktəblərin problemlərini həll etməsinə imkan yaradır. Eyni zamanda, yüksək keyfiyyətli təlimin təmin edilməsinə, şagirdlərin məşğulluğunun artırılması üçün məktəbdənkənar maneələrin aradan qaldırılmasına təkan verir. Həmçinin bu məktəblərin yanaşmaları bir çox hallarda təkrarlanan və şablona çevrilən texnologiyalardan ibarət olmur. Əksinə, bütün tələbələrin, ailələrin, icmaların güclü qarşılıqlı münasibətləri əsasında spesifik yanaşmalar kimi formalaşır. Belə münasibətlər öyrənmə fəaliyyətində şagirdləri əlaqələndirməklə onların fəaliyyətini tənzimləyir və daha inamla irəliləmələrinin əsasına çevrilir.

### Məktəb icmasının yaradılması

Araşdırmalar onu göstərir ki, ənənəvi olaraq müəllim-şagird-valideyn əlaqələrinin yaradılması onun ümumi təhsil işinə təkan verə bilməsi barədə düşünülmüş və Valideyn-Müəllim Assosasiyası kimi bir ictimai qurum yaradılmışdır. Lakin müstəqillik dövründə təhsil müstəvisində yeni münasibətlər formalaşdıqca vəziyyət tamamilə başqalaşmışdır. Artıq mediada və müxtəlif mətbuat səhifələrində həmin qurumun öz vəzifəsini yerinə yetirə bilmədiyi açıq aşkar şəkildə göstərilirdi.Bu qurumun fəaliyyətində zəif əməkdaşlıqla müşayiət olunan seyrcilik, formalizm diqqəti cəlb edirdi. Məktəbdə şagirdlərin təhsil nailiyyətlərinə, ümumiyyətlə, inkişafına yönəlmiş, onu əsaslı şəkildə dəstəkləyən ciddi əlaqələrin yaradılması özlüyündə bir zərurət kimi meydana çıxmışdır. Belə olan halda, ümumi təhsil vəzifələrinin tərəfdaşlıq prinsipi əsasında yerinə yetirilməsində tərəfdaş ola bilən, məsuliyyəti bərabər bölüşə bilmək missiyasını daşıyan məktəb icması yarandı. 2015-ci ildən bu işin layihə şəklində həyata keçirilməsinə başlanıldı. 50-dən çox məktəb icması yaradıldı.

### Bu günün müəllimi haqqında qənaətlər

Heç şübhəsiz, bu günün müəllimlik düşüncəsində uşaqlarımızı gələcəyin çağırışlarına hazırlamaq barədə fikirlər əsas yer tutur. Onlar rəqəmsal, mürəkkəb, qeyri-müəyyən və dəyişkən xarakter daşıyan müasir dünyada uğur qazanmaq,yeniliklərlə dolu həyatda özünə yer tutmağı bacaran şəxs, eləcə də nəsillərin yetişməsində səlahiyyət sahibi kimi xüsusi mövqe qazanırlar. Ona görə də zəruri bilik və bacarıqların mənimsənilməsinə dəstək verirlər. Şagirdlərin təlim mühitini yaratmaq üçün yeni pedaqoji strategiyalardan istifadə etməli olurlar. Elə strategiyalar ki,şagirdlərin öyrənməsinə və inkişafına şərait yaratsın, sosial və emosional bacarıqları inkişaf etdirsin. Həmçinin effektiv və fərdiləşdirilmiş pedaqogikanın tələblərinə cavab versin. Bütün bunların fonunda müəllim fəaliyyətini daim innovativ və peşəkarlığı inkişaf etdirmək istiqamətində qursun.

Belə olduqda müəllimləri və məktəbləri valideynlər və yerli icmalarla daha möhkəm əlaqələr qurmağa, şagirdləri sosial məsuliyyət hissi və problemi həll etmək istiqamətlərində fəaliyyətlərə təşviq etmək asanlaşa biləcəkdir.

Bunun üçün isə innovasiyalara imkan yaradan, ona təşviq edən şərait olmalı, müəllimlərin yeni pedaqogikanı mənimsəməklə potensialını inkişaf etdirməsinə, qabaqcıl təcrübəni öyrənməklə peşəkarlığın yüksəldilməsinə zəmin yaradılmalıdır.

Müəllim xüsusi bir peşədir. Müəllimlər o insanlardır ki, daim ictimaiyyətin diqqətində olmaqla bərabər, tələbələr, həmkarlar və valideynlərlə birgə təmasdadırlar. Biliklər unudula bilər, amma müəllim obrazını unutmaq çətindir. O daim hər kəsin düşüncə məkanında yaşayır. Odur ki, müəllim obrazının özəlliyi, onun struktur komponentlərinin öyrənilməsi, müəllimin obrazı ilə pedaqoji bacarığı arasında keyfiyyət əlaqəsinin qiymətləndirilməsi hazırda aktual problemlərdən biridir. Təcrübələr də onu göstərir ki, bir çox məktəblilər sevimli müəllimlərinin tədris etdiyi fənni daha yaxşı öyrənirlər. Biliyin formalaşdırılması prosesində tədris metodları ilə yanaşı, müəllim obrazına da böyük əhəmiyyət verirlər. Başqa sözlə, şagirdlərin tədris prosesinə, mövzuya, müəllimə və nəhayət, məktəbə münasibəti məhz bu obrazın vasitəsi ilə yaranır. Həqiqətən də, müəllim uşaqlara təkcə bilik vermir, xüsusən də bu gün yüksək texnologiyaların sürətli inkişafı dövründə bu daha qabarıq görünür. Müəllimin şagirdlərlə qarşılıqlı əlaqəsi məktəbdən başlayır və günbəgün inkişaf edərək geniş miqyas alır. Belə qarşılıqlı əlaqə prosesində şagirdlər özlərinin şagird dünyalarını tapır və onu zənginləşdirməkdə israrlı ola bilirlər.

### Məktəb-valideyn tərəfdaşlığı inkişafın hərəkətverici qüvvəsidir

İcmaların yaranmasında məktəb ailə münasibətləri yeni mahiyyət kəsb edir. Onların arasındakı əlaqələr əməkdaşlıq çərçivəsindən çıxaraq tərəfdaşlıq mövqeyi qazanır və məktəb icmasını möhkəmləndirən vasitəyə çevrilir. Tərəfdaşlıq mövqeyində olmaq istər məktəbi, istərsə də ailəni daha məsuliyyətli olmağa, şagirdlərin inkişafyönümlü dinamikasını bərabər izləməyə sövq edir. Belə münasibətlər müstəvisində məsuliyyətin bərabər bölüşdürülməsi təhsildə ümumi irəliləyişlərin əldə olunmasının təkanverici qüvvəsinə çevrilir. Bu münasibətlər eyni zamanda məktəb təhsilinin keyfiyyət artımında da aparıcı rola malik olur. Həmçinin məktəb-valideyn münasibətlərini monolit birliyə çevirir.

### Şagirdyönümlü yanaşmaların sosial xarakteri

Şagirdyönümlülük xüsusi yanaşma kimi müasir məktəbin daha işıqlı, parıltılı tərəfləri kimi görünməkdədir.Bu, hər şeydən əvvəl, onun sosial xarakterindən irəli gəlir. Şagirdə cəmiyyətin gələcək aparıcı qüvvəsi kimi dəyər verilir. O, cəmiyyətin mühüm hadisəsinə çevrilir. Beləliklə, cəmiyyət atributlarını yetişdirməklə özünü ifadə edir və zənginləşir. Bütün bu proseslər məktəb icması şəraitində daha effektiv və uğurlu olur.

### Məktəblə bağlı olan insanların fəaliyyət mərkəzi - məktəb icması

Məktəb inkişafetdirici fəaliyyətində maraqlı olan tərəflərlə qarşılıqlı və müştərək çalışaraq tərəfdaşları ilə birləşir. Başqa sözlə, məktəb fəaliyyət mərkəzi kimi tərəfdaşları ilə möhkəm birlik yaradaraq uğurlarını təmin edə bilir. Bu fəaliyyətlərin tənzimlənməsində möhkəm tərəfdaşlıq əlaqələri həlledici rol oynayır. Belə bir mükəmməl əlaqənin yaranması, inkişafı prosesi də formalaşmış müəyyən birliyə əsaslanır ki, bu birlik, əslində, məktəb icmasının xüsusiyyətlərinə uyğun təzahür edir.

Düzgün olaraq son araşdırmalarda da məktəb icması məktəb həyatını daha maraqlı etmək üçün müəllim, valideyn və şagird arasında yaradılmış sıx əməkdaşlıq hesab edilir. Eyni zamanda məktəb icmasına məktəblə bağlı insanların toplusu kimi baxılır. Nəzərə alınır ki, məktəb icması olan yerdə valideynlər məktəblə yaxından tanış olmağa imkan tapa bilir, bu prosesin fəal iştirakçısına çevrilirlər. “Birlikdə öyrənirik,iştirak edirik və istirahət edirik” devizi altında birləşə bilirlər.

ABŞ-da yaradılmış İcma Məktəbləri Koalisiyası icma məktəblərini məktəb və digər icma resursları arasında həm məkan, həm də tərəfdaşlıq baxımından müəyyən edir.

Ümumi təhsil vəzifələrinin tərəfdaşlıq prinsipi əsasında yerinə yetirilməsində tərəfdaş ola bilən, məsuliyyəti bərabər bölüşə bilmək missiyasını daşıyan məktəb icması yarandı. 2015-ci ildən bu işin layihə şəklində həyata keçirilməsinə başlanıldı. 50-dən çox məktəb icması yaradıldı.

İcmaların yaranmasında məktəb ailə münasibətləri yeni mahiyyət kəsb edir. Onların arasındakı əlaqələr əməkdaşlıq çərçivəsindən çıxaraq tərəfdaşlıq mövqeyi qazanır və məktəb icmasını möhkəmləndirən vasitəyə çevrilir. Tərəfdaşlıq mövqeyində olmaq istər məktəbi, istərsə də ailəni daha məsuliyyətli olmağa, şagirdlərin inkişafyönümlü dinamikasını bərabər izləməyə sövq edir.

Məktəb fəaliyyət mərkəzi kimi tərəfdaşları ilə möhkəm birlik yaradaraq uğurlarını təmin edə bilir. Bu fəaliyyətlərin tənzimlənməsində möhkəm tərəfdaşlıq əlaqələri həlledici rol oynayır. Belə bir mükəmməl əlaqənin yaranması, inkişafı prosesi də formalaşmış müəyyən birliyə əsaslanır ki, bu birlik, əslində, məktəb icmasının xüsusiyyətlərinə uyğun təzahür edir.





# 2023 – "Heydər Əliyev İli"



Sizi əmin edirəm ki, mən həmişə yüksək mənəviyyat uğrunda mübarizə aparmışam, mənim həyatım saf mənəviyyat əsasında qurulubdur, mənim gördüyüm işlər də saf, təmiz mənəviyyat əsasında qurulubdur. Mən Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm, ona görə də mən indiyə qədər buna sadiq olduğum kimi, bundan sonra da sadiq olacağam...Bütün həyatımla, gördüyüm işlərlə, respublikanın, dövlətin başçısı kimi atdığım bütün addımlarımla, tədbirlərimlə ölkəmizdə mənəviyyatın daha da möhkəmlənməsini, milli-mənəvi dəyərlərimizin yaşamasını, milli adət-ənənələrimizə sadiq olmağımızı təmin etməyə çalışmışam.

**Heydər ƏLİYEV, Ümummilli Lider**

## Məktəbdə Ulu Öndərin barelyefinin açılışı olub



Bakı şəhəri 171 nömrəli tam orta məktəbdə Ümummilli Lider Heydər Əliyevin barelyefinin açılış mərasimi və Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş "Neçə yüz illər keçəcək..." adlı tədbir keçirilib.

Mərasimdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva, millət vəkili Sadiq Qurbanov, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini Rafiq İsayev, İdarənin Məktəbdənkənar fəaliyyətlərin təşkili sektorunun müdiri Günay Qurbanova, Xətai Rayon İcra Hakimiyyətinin, Xətai rayon Gənclər və İdman İdarəsinin, Xətai rayon Polis İdarəsinin, Xətai rayon Veteranlar Şurasının nümayəndələri, I Qarabağ Müharibəsi şəhidi Zaur Məmmədovun ailə üzvləri, məktəb direktorları, müəllimlər və şagirdlər iştirak ediblər.

Öncə barelyefin açılış mərasimi keçirilib, qonaqlar Azərbaycan tarixinin Heydər Əliyev dövrünün gələcək nəsillərə aşılanması baxımından təhsil müəssisəsi tərəfindən belə addımların atılmasını yüksək dəyərləndiriblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyev və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

BŞTİ-nin müdiri M.Vəliyeva "Heydər Əliyev İli" çərçivəsində 171 nömrəli tam orta məktəbdə Ümummilli Liderin barelyefinin açılış mərasiminin keçirilməsini önəmli missiya kimi qiymətləndirdiyini vurğulayıb. Şagirdlərdə vətənpərvərlik ruhunu yüksəltmək, gənc nəslin tariximizə dair biliklərini möhkəmləndirmək üçün belə təşəbbüslərin əhəmiyyətinin danılmaz olduğunu deyən İdarə müdiri təhsil müəssisələrində dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dərindən araşdırılması ilə Ulu Öndərin zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yarandığını diqqətə çatdırıb.

Çıxış edən millət vəkili S.Qurbanov Ulu Öndərin Vətənimizin müstəqilliyi, bütövlüyü uğrunda yorulmaz fəaliyyətinin bu gün yetişməkdə olan gənc nəslə örnək olduğunu bildirib. Qeyd edib ki, bütün sahələrdəki nailiyyətlər, o cümlədən də təhsil uğurları Heydər Əliyevin əsasını qoyduğu etibarlı təməllərə söykənir, daha parlaq gələcək üçün yeni hədəflər müəyyənləşdirir.

Tədbirdə məktəblilərin ifasında Ümummilli Lider Heydər Əliyevə, vətənpərvərlik mövzusuna həsr olunmuş şeirləri səsləndirilib, mahnılar ifa olunub, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

Daha sonra məktəbin həyətində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.



## Heydər Əliyevin milli-mənəvi dəyərlərin formalaşmasında rolu

Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər xalqımızın milli mənlik şüurunun oyanması, azadlığa və müstəqilliyə qovuşmaq arzularının çiçəklənməsi, ictimai həyatımızın, iqtisadiyyatımızın bütün sahələrində, elm və mədəniyyətimizin inkişafında böyük nailiyyətlərin əldə edilməsi ilə əlamətdar olmuşdur. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiya prosesinin hazırkı möhkəm təməli, məhz Heydər Əliyev tərəfindən respublikaya rəhbərlik etdiyi həmin illərdə yaradılmış potensiala əsaslanır. Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz - bütün bunlar günümüzün reallığıdır. Heydər Əliyevin milli neft strategiyası Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirib. Ölkəmizin Qərbə inteqrasiyasına geniş yol açıb və bu prosesi sürətləndirib. Biz bu gün də bu möhtəşəm strategiyanın real nəticələrini, bəhrələrini görürük. "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft-boru kəməri Azərbaycanı Qərb dünyası ilə daha sıx birləşdirir və ölkəmizə milyardlarla dollar həcmində mənfəət gətirir. Azərbaycan dövlətinin iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA nəqliyyat dəhlizinin reallaşması da Ulu Öndərin bəşəri xidmətlərindəndir.

Ümummilli Lider özünün çoxsaylı çıxışlarında, nitqlərində, məruzələrində, ilk növbədə, mənəvi tərbiyə prinsiplərini ön plana çəkirdi. Heydər Əliyev ümumbəşəri humanist və mütərəqqi ideyalara ehtiramla yanaşmış və onlardan mənəvi tərbiyə sahəsində geniş istifadə etməyi məsləhət görürdü. Hələ sovetlər dönəmində Heydər Əliyevin siyasi tərbiyəvi fəaliyyətində ümumbəşəri mütərəqqi fikirlərin, ideyaların tədqiqi və tərbiyə sistemində istifadə olunması mühüm yer tuturdu. Ulu Öndər nəinki Xəqani, Nizami, Nəsimi, Füzuli, M.F.Axundzadə, C.Məmmədquluzadə, Sabir, Hüseyn Cavid, eyni zamanda Firdovsi, Əlişir Nəvai, Homer, Esxil, Şekspir, L.Tolstoy, Puşkin, Şota Rustaveli və başqa mütəfəkkirləri mədh edir, Azərbaycan gənclərinə bu şəxslərin əsərlərini oxuyub dərk etməsini məsləhət görürdü.

Milli-mənəvi tərbiyə problemləri Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə daha dolğun şəkildə qoyulmuşdur. Ümummilli Lider öncə şəxsiyyətin, millətin, cəmiyyətin mənəviyyatı probleminə toxunaraq milli-mənəvi dəyərlərə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə müraciət edirdi. Bu, o deməkdir ki, Azərbaycan xalqının mənəvi inkişafı, mənəvi tərəqqisi, mənəvi paklığı bilavasitə xalqın öz keçmişinə münasibətindən, öz tarixi mədəniyyətini nə dərəcədə mənimsəyib-mənimsəməməsindən asılıdır. Nəhayət, mənəvi saflıq millətin mütərəqqi adət-ənənələrinin bugünkü həyata daxil olmasının dərəcəsindən asılıdır. Heydər Əliyev milli-mənəvi dəyərlər deyəndə, ilk növbədə, Azərbaycanda min illərlə formalaşmış adət-ənənələri, eyni zamanda bu adət-ənənələrdə əks olunan mütərəqqi prinsipləri nəzərdə tuturdu. Bunları belə təqdim edə bilərik: Azərbaycan ailəsi, ailə ənənələri, ailə mənəviyyatı və ailə mədəniyyəti. Mənəvi cəhətdən sağlam, mənəviyyatı zəngin olan ailə gənc nəslin dayağıdır, mənəvi qida mənbəyidir. Ümummilli Lider qeyd edirdi: "Ailə xüsusi mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə hörmət və ehtiram lazımdır".

Azərbaycanın milli-mənəvi dəyərlərində, Azərbaycan xalqının adət-ənənələrində böyük-kiçik problemi. Gənclərin ağsaqqallara, yaşlılara münasibəti, yaşlı nəslin gənc nəslə qayğısı, onlar üçün nümunə olması ilə bu sistemdə hərə öz funksiyasını düzgün yerinə yetirməlidir. Əgər gənclik düzgün enerjiyə, kəskin düşüncəyə, sağlam orqanizmə malikdirsə, bunlara arxalanaraq, yaşlı nəslə hörmət göstərirsə, yaşlı nəsil də bir nümunə mənbəyi olmalıdır, öz hərəkəti, davranışı ilə gənclərə yol göstərməlidir. Bütün bunlar Heydər Əliyev irsində xüsusi yerlərdən birini tutur.

Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabr ayının 2-də xalqa müraciəti, şəhidlərin valideynləri, elm və incəsənət adamları ilə keçirilən görüşləri, habelə Ümummilli Liderin Fransaya, Türkiyəyə, ABŞ-a, İngiltərəyə, Çinə müvəffəqiyyətli səfərləri, Aşqabad Bəyannaməsi, Lissabon sammiti və s. kimi tədbirlər bütövlükdə xalqda, millətdə, xüsusilə gənclərdə bir inam hissi yaratdı. Ruhdan düşmüş xalqda inamı yüksəldən, əhvali-ruhiyyə yaradan, məhz Heydər Əliyev oldu. Ulu Öndər xalqa müraciətində deyirdi: "İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır... Torpaqlarımızın zəbt olunmasına dözməməliyik. Millətini, torpağını sevən hər bir adam buna razı olmamalıdır". Ulu Öndər bu dəfə də əsl xilaskarlıq missiyasını cəsarətlə, qətiyyətlə yerinə yetirdi, separatçılar yerində oturduldu, istiqlalımız təhlükədən qurtardı, qanuni dövlət hakimiyyəti bərpa olundu, xalq rahat nəfəs aldı. Gəncə qiyamının yatırılması, Cənub bölgəsindəki pozucu qüvvələrin fitnəkar əməllərinə son qoyulması, ölkədə milli həmrəyliyin bərpası, vətəndaş birliyinin təmini, Milli ordunun möhkəmləndirilməsi, torpaqlarımızın işğalının qarşısının alınması kimi mühüm tədbirlər məhz Heydər Əliyev dühasının qüdrəti ilə gerçəkləşdi.

Xalqın mənəvi tərəqqisində şəxsiyyətlər, xüsusilə görkəmli rəhbərlər çox böyük rol oynayırlar. Türkiyənin böyük öndəri Mustafa Kamal Atatürk deyirdi: "Böyük şəxsiyyətləri olmayan millət iqtisadi cəhətdən nə qədər güclü olsa da, müəyyən fəlakət, sarsıntı qarşısında məhv olub gedir. O şəxsiyyətlər böyük və görkəmlidirlər ki, onlar tarixi zərurəti, cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqlarını düzgün dərk edir və kütlələrin əməli fəaliyyətini həmin istiqamətə yönəldirlər, kütlənin mənəvi, siyasi birliyinə nail ola bilirlər". Bəli, belə şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. O, xalqın birliyini yarada bilmiş, xalqda düşmənə qarşı nifrət oyatmış, xalqın yekdil mübarizəyə qalxmasını təmin etmişdir. Çox təəssüflə qeyd etməliyik ki, ölkənin səriştəsiz rəhbərləri tərəfindən mədəniyyət sahəsində aparılmış qeyri-obyektiv siyasət mədəniyyət və incəsənətin məhvinə şərait yaratmışdır. Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində elmə, mədəni irsə, ədəbiyyat və mədəniyyətə, görkəmli şəxsiyyətlərə münasibət dəyişdi. Elm, incəsənət adamlarına, yazıçı və şairlərə qayğı artırıldı. Azərbaycan yazıçılarının X Qurultayında iştirakı, məzmunlu nitqi yaradıcı adamlara böyük ümid verdi və gələcəyə inam doğurdu.

Mədəniyyətimizin beşiyi sayılan Qarabağ mənfur, qaniçən, faşist ermənilər tərəfindən işğal edilən zaman bu sahələrdə yüzlərlə nadir tarixi, arxeologiya, memarlıq abidələri yerləşirdi. Təkcə Şuşanın erməni təcavüzkarları tərəfindən işğal olunması nəticəsində altı muzey - Azərbaycan Dövlət Xalça Muzeyinin Şuşa filialı, Bülbülün, Üzeyir Hacıbəyovun, Mir Möhsün Nəvvabın ev-muzeyləri, Şuşa şəhərinin tarixi muzeyi, Qarabağın Dövlət Tarix Muzeyi, Şəkil qalereyası məhv edilmişdir. Milli ziyalılarımızın görkəmli nümayəndələrinin bir qrupu mədəniyyətimizin vəziyyəti ilə əlaqədar həyəcan və ağrıdolu bəyanatla mətbuatda çıxış etmişlər. Bəyanatın bir yerində deyilir ki, bir çox istedadlı Azərbaycan dirijoru, musiqiçisi, alimi vətəndə özlərinin gərəksizliyini və onlara ehtiyac duyulmadığını hiss edərək xaricə gedirlər. Mühacirət, "ağıllar"ın, xalqın intellektual sərvətinin xaricə axını xüsusilə narahatlıq yaradır. Gələcəkdə bu, bütün milli mədəniyyət üçün əvəzedilməz itkiyə çevrilə bilər. Bəs çıxış yolu nədə idi? "Mədəniyyət sahəsinin dağılması" kimi təhlükəli bir ənənənin qarşısını necə almaq olar və bununla əlaqədar dövlətin rolu nədən ibarətdir?

Bu və ya bu kimi suallara Ümummilli Lider Heydər Əliyev çıxış və nitqlərində çox gözəl cavablar vermişdir. Ulu Öndər qeyd edirdi ki, keçmiş SSRİ-dəki partiya nomenklatur rejimi düzgün olaraq tənqid edilir. Ona görə ki, ədəbiyyat və incəsənət xadimlərinə xırda qəyyumluq göstəriblər, onları "hakimiyyət başında olanların" total nəzarəti şəraitində yaratmağa məcbur ediblər. Bəli, o vaxtlar çoxları üçün yaşayış asan idi, lakin bununla belə, onlar mənəvi əzab-əziyyət içində idilər. İndi ideoloji repressiyalar vaxtı keçmişdə qalıb və həqiqətən istedad sahibi olan konyunkturadan uzaq bir sənətkar buna təsadüf etmir... Keçmişi qiymətləndirərkən onun səhvlərindən imtina etməklə yanaşı, mədəni quruculuq sahəsində on illər ərzində qazanılmış keçmiş təcrübənin hamısının üstündən xətt çəkməyə ehtiyac yoxdur. Belə mədəni-tarixi nihilizm yaxın gələcəkdə vətənimizin mədəniyyəti üçün ağır nəticələr verə bilər. Keçmişin özündə diqqətəlayiq nə varsa, ondan imtina etmək lazım deyil.

Ulu Öndərin mənəvi tərbiyə ilə bağlı örnək dolu bir neçə fikirlərinə nəzər salaq:

* Hər bir xalqın, o cümlədən də Azərbaycan xalqının öz milli mənliyi var. O milli mənliyi də xalqın qabaqda gedən adamları ifadə etməli, təmsil etməlidirlər.
* Cəmiyyətimizdə saf mənəviyyatı bərqərar etmək, inkişaf etdirmək, bütün mənfi hallara qarşı mübarizəni gücləndirmək əsas vəzifəmizdir.
* Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən, bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.
* Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.
* Biz azərbaycanlılar - bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur: heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.

Ümummilli Lider Heydər Əliyevin yuxarıda qeyd etdiyimiz kimi, mənəvi tərbiyə ilə bağlı fikirləri onlarladır. Onun mənəvi tərbiyə ilə bağlı hər bir fikrində hikmət işığı vardır. Böyük zəka sahibi belə qeyd edirdi ki, "təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır. Bu mənada biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər". Beləliklə, deyə bilərik ki, mənəvi tərbiyə hər bir cəmiyyətin mövcudluğu və inkişafı, hər bir şəxsin həyat fəaliyyəti və başqa adamlarla qarşılıqlı münasibətləri üçün ən zəruri amildir. Mənəvi anlayış və mühakimələr əsasında əqidə formalaşır. Əqidə isə insanı inama bağlayır. İnsan əqidəsinə sadiq olur, əqidəsi naminə hərəkət edir. Əqidəli adamlar Vətən uğrunda, millət, xalq uğrunda canlarından keçməyə, şəhid olmağa hər an hazır olur. Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi yaşaması uğrunda canını fəda etməyə hər an hazır olduğunu belə ifadə etmişdir: "Əgər hər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq".

Yekun nəticə olaraq qeyd edək ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin müqəddəs missiyanı gerçəkliyə çevirdi, milliliklə dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi.

**Vüqar SƏLİMOVA,**
*"Peşə təhsili və insan kapitalı" jurnalının əməkdaşı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

Region təhsili

# “Heydər Əliyev və peşə təhsili”

İmişlidə “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev və peşə təhsili” adlı tədbir keçirilib.

İmişli Rayon Təhsil Sektorundan redaksiyamıza daxil olan məlumata görə, tədbirdə YAP İmişli rayon təşkilatının nümayəndələri, İmişli Peşə məktəbinin kollektivi və təhsil işçiləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Peşə ərazi partiya təşkilatının sədri Qalib Mirzəyev bildirib ki, uzun tarixə malik olan peşə təhsili Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə özünün ən yüksək inkişaf mərhələsinə çatıb. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə diqqətçəkən məqamlardan biri də respublikamızda milli kadrların yetişdirilməsi ilə bağlı mühüm işlər olub.

Sonra YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və göstərişi ilə baza müəssisələrinin qabaqcıl mühəndis-texniki mütəxəssisləri peşə təhsili müəssisələrinə ixtisas fənn müəllimi, istehsalat təlimi ustaları və rəhbər işçi kimi irəli çəkilib. Müəssisə və təşkilatlarda istifadə olunan yeni texnoloji avadanlıqlar, maşın və mexanizmlərin peşə təhsili müəssisələrinə ödənişsiz verilməsi təşkil olunub. Vurğulanıb ki, Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı “Peşə təhsili” haqqında Qanun bu sahənin inkişaf etdirilməsi üçün mühüm addımlardan biri olub.

Daha sonra digər çıxış edənlər bildiriblər ki, Heydər Əliyev Azərbaycan xalqının böyük dövlətçilik istedadına və zəngin təcrübəyə malik olan, xilaskarlıq, sabitlik və inkişaf missiyasını uğurla həyata keçirmiş qüdrətli şəxsiyyət, Azərbaycan dövlət müstəqilliyinin banisidir. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan Qafqazda lider ölkədir.

# Şagirdlər Hərbi Qənimətlər Parkında



“Bir günlük tələbə olaq” adlı layihə çərçivəsində ADPU-da ekskursiyada olmuş Mil-Muğan RTİ-dən olan şagirdlər Hərbi Qənimətlər Parkında olublar.

RTİ-dən redaksiyamıza verilən məlumata görə, Hərbi Qənimətlər Parkına ekskursiyanın məqsədi şagirdlərə vətənpərvərlik ruhunu aşılamaq, 44 günlük Vətən müharibəsində ordumuzun əldə etdiyi hərbi silah və sursatla şagirdləri əyani tanış etmək olub.

Hərbi Qənimətlər Parkında şagirdlər düşməndən qənimət götürülən hərbi texnika, düşmənin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyat vasitələri və digər sursatlarla yaxından tanış olublar.

Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarımızda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanlarından hazırlanan lövhə şagirdlərin marağına səbəb olmuşdur.

Sonda parkın bələdçiləri şagirdləri maraqlandıran suallara ərafli cavab veriblər.

# “Sərhəd” hərbi-idman oyunlarının zona mərhələsi



Şəki-Zaqatala Regional Təhsil İdarəsi üzrə “Sərhəd” hərbi-idman oyunlarının zona mərhələsi yekunlaşıb.

RTİ-dən aldığımız məlumata görə, “Sərhəd” hərbi-idman oyunları Elm və Təhsil Nazirliyi, Dövlət Sərhəd Xidməti, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə hər il ənənəvi olaraq respublikamızın sərhəd zonasında yerləşən ümumtəhsil məktəblərinin 10-cu sinif şagirdləri arasında keçirilir.

Oyunların keçirilməsində əsas məqsəd gənc nəsli Vətənə məhəbbət ruhunda tərbiyə etmək, yaradıcı düşünən sağlam gənclər yetişdirmək və onlarda sərhədçi peşəsinə marağı artırmaqdır.

Bu günlərdə keçirilən oyunların nəticələrinə əsasən, Oğuz və Qax məktəbliləri də zona mərhələsində I yerə layiq görülüb.

**Şakir CƏFƏROV**

# Pedaqoji təcrübə kompleks bir prosesdir

## Təcrübəçi tələbələrin sınaq dərsləri müasir tələblər baxımından yüksək qiymətləndirildi



Müasir dövrdə Azərbaycanın müasir düşüncəyə, bacarıqlara malik gənc nəsli yetişir. XXI əsrdə cəmiyyət müstəqil düşünən, ağıllı, bacarıqlı, hərtərəfli şəxsiyyət yetişdirməyi təhsil müəssisələrinin, pedaqoji kadrların qarşısında tələb kimi qoymuşdur. Bu tələblər daim öz bacarıqlarını yeniləməyi bacaran, innovativ, yaradıcı təfəkkürə malik mütəxəssislərin, müəllimlərin, tərbiyəçi-pedaqoqların hazırlanmasını, təhsil sistemində yeniliklər etməyi zəruri bir hala gətirmişdir.

Müəllim peşəsinin nüfuzunun artırılması, innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın strateji istiqamətlərindən biridir.

Bu baxımdan pedaqoji təhsil alan hər bir tələbənin 4 il ərzində öyrəndikləri nəzəri pedoqoji bilikləri məktəb mühitində müşahidə və tətbiq edərək, müəllimlik fəaliyyətinə hazırlanması vacib şərtdir və pedaqoji təcrübə təlim prosesinin ayrılmaz bir hissəsidir.

ADPU-nun tədris planında pedaqoji təcrübənin xüsusi yeri vardır. Artıq bir neçə ildir ki, ADPU rəhbərliyinin təşəbbüsü ilə tələbələrin pedaqoji təcrübə müddətinin vaxtı uzadılmış, eyni zamanda pedaqoji təcrübənin effektivliyini, səmərəliliyini artırmaq məqsədilə bir sıra uğurlu addımlar atılmışdır.

16.02.2023-cü il tarixindən başlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) kimya və biologiya fakültəsinin sonuncu tədris ili tələbələrinin pedaqoji təcrübələri başlanmış və hazırda da uğurla davam edir. Tələbələrin təcrübələri Elm və Təhsil Nazirliyinin tabeliyindəki ümumtəhsil müəssisələri ilə yanaşı, Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrində həyata keçirilir.

Bu ümumtəhsil müəssisələrindən biri də Bakının Nizami rayonunda yerləşən Yuri Kovolyov adına 229 nömrəli məktəbdir. Bu məktəbdə kimya və biologiya fakültəsinin 14 nəfər tələbəsi “Kimya və biologiya” ixtisasları üzrə pedaqoji təcrübə keçir. Təcrübəçi tələbələr passiv pedaqoji təcrübə müddətində məktəb rəhbərliyi ilə, məktəblə, sinifdəki fəaliyyətlərlə məktəbin maddi-texniki bazası ilə tanış olmuş, şagirdləri, fənn müəllimlərinin dərslərini müşahidə etmişlər. Aktiv pedaqoji təcrübə müddətində isə təhkim olunduqları sinifdə dərs deyən müəllimlərin illik planını, şagirdlərin maraq və ehtiyaclarını nəzərə almaqla sınaq dərsləri hazırlayır, elektron və çap resurslarından, laboratoriya avadanlıqlarından istifadə etməklə uğurlu sınaq dərsləri keçirlər. Təcrübəçi tələbələrdən Baratlı Rüfətin X sinifdə “Ən qədim insanlar”, Cəfərzadə Xanımın IX sinifdə “Düşüncəli fəaliyyət. Nitq. Təfəkkür.”, Fətəliyev Cəlilin IX sinifdə “Yuxu”, Bayramlı Jalənin IX sinifdə “Ali sinir fəaliyyətinin əsas tipləri”, Əhməyeva Məryəmin VIII sinifdə “Orqanizmin böyümə və inkişafı”, Abutalıbova Samirənin IX sinifdə “Xarakter və qabiliyyət”, Abuşova Nərgizin VII sinifdə “Həşəratların müxtəlifliyi və təbiətdə rolu” və s. mövzularda keçdikləri sınaq dərsləri həm şagirdlər, həm fənn metodisti Könül Mahmudova, həm də 229 nömrəli məktəbin rəhbəri Vüsalə Məmmədova, biologiya fənn müəllimi Gülər Əmirova tərəfindən yüksək qiymətləndirilmişdir.

Dərsləri müşahidə edən pedaqoji heyət sınaq dərsi deyən tələbələrin təkcə yüksək nəzəri biliklərə malik olmasını deyil, eyni zamanda da yüksək dünyagörüşünə, təfəkkürə malik olduqlarını qeyd etdilər. Tələbələrin sınaq dərslərini həm müasir tələblərə uyğun qurduqlarını, eyni zamanda da şagird fəaliyyətini stimullaşdırmaq, şagirdlərə fərdi yanaşmaq, onların uğurlarını dəstəkləmək, fəaliyyətlərini düzgün istiqamətləndirmək və qiymətləndirmək kimi xüsusiyyətlərini yüksək qiymətləndirdilər. Eyni zamanda müzakirələr zamanı təcrübəçi tələbələrin əyani vəsaitlərdən düzgün, şagirdlərin öyrənmə tərzini nəzərə almaqla istifadə etmələrinin, mövzuların həyatla əlaqələndirilməsinin xüsusi marağa səbəb olduğunu vurğuladılar.

Qeyd edək ki, pedaqoji təcrübə may ayının 24-dək davam edəcək.

**Şakir CƏFƏROV**



# “StartupFest Gəncə” proqramının açılış mərasimi olub

*Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) “Yerli texnoloji startapların inkişafının təşviqi” layihəsi çərçivəsində “StartupFest Gəncə” Proqramının təqdimatı və açılış mərasimi keçirilib. Layihə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Asiya İnkişaf Bankı tərəfindən birgə həyata keçirilir.*

Layihənin iştirakçıları isə Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Texnologiya Universitetidir.

Açılışda çıxış edən Asiya İnkişaf Bankının Layihə İdarəetmə qrupunun rəhbəri Raza Farrukh layihənin əsas məqsədinin Azərbaycanda fəaliyyət göstərən texnoloji startaplara dəstək vermək olduğunu söyləyib. Qeyd edib ki, Asiya İnkişaf Bankı bu dəstəklər və təşviqlər nəticəsində Azərbaycanda lazımi innovasiya ekosisteminin formalaşmasına və bir çox uğur qazanan startap layihələrinin ortaya qoyulacağına inanır.

Daha sonra Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müşaviri Azər Bayramov çıxış edərək bildirib ki, bu layihə çərçivəsində təşkil olunacaq təlimə 71 komanda müraciət edib və münsiflərin qiymətləndirməsi nəticəsində 15 komanda növbəti mərhələyə keçib. O, bu layihənin həm Gəncə-Daşkəsən iqtisadi rayonu, həm də ümumillikdə respublika üçün uğurlu olacağını vurğulayıb.

Tədbirdə Azərbaycan Texnologiya Universitetinin Elm və xarici əlaqələr üzrə müşaviri Mayıs Gülalıyev və Gəncə Dövlət Universitetinin İnnovasiyalar departamentinin direktoru Vasif Həsənov da çıxış ediblər.

Açılış mərasiminin ardından təlimlərə start verilib. Təlimlər bir ay müddətində davam edəcək və sonda I yerə çıxacaq komandaya Türkiyədəki inkubasiya mərkəzinə təcrübə səfəri, II yerə çıxacaq komandaya təlim kuponu (5000 AZN dəyərində), III yerə çıxacaq komandaya isə komandanın hər üzvü üçün Udemy-ə illik abunəlik hədiyyə olunacaq.




Bu nəzəriyyəyə əsl populyarlığı iki kitab gətirdi: Howe N., Strauss W. Generations: The History of America's Future, 1584 to 2069 (1991), Howe N., Strauss W. The Fourth Turning: An American Prophecy (1997). Nəsillər nəzəriyyəsi 1991-ci ildə amerikalı yazıçı-sosioloqları Uilyam Ştraus və Nil Xay tərəfindən yaradılmışdır. Onlar öz xüsusiyyətləri və dəyərləri ilə nəsillərin dörd arxetipini ayırdılar. Nəsillər nəzəriyyəsi - araşdırıcı yanaşmadır: müxtəlif nəsillər necə yaranır, onları nə birləşdirir və necə dəyişirlər. Onun mahiyyəti ondan ibarətdir ki, eyni dövrdə anadan olan insanlar oxşar dəyərlərə, həyat təcrübəsinə və eyni təfəkkürə malikdir. Sosial nəsillər bir-birini 15-20 il aralığı ilə əvəz edir. Nəsillər nəzəriyyəsinin əsas məsələsi, yaş fərqi olan insanlar arasında anlaşılmazlığın səbəblərini izah etmək, hər biri ilə ünsiyyət qaydalarını açmaqdır. Nəzəriyyəni bilmək - uşaqlarla, valideynlərlə, həmkarlarla əlverişli ünsiyyət aləti əldə etmək deməkdir. Hər nəsillə bir çox insanların xarakterik xüsusiyyətləri dəyişir və bunu izləmək maraqlıdır. Əvvəlki və ya sonrakı nəsillərdə nəyin yaxşı, nəyin pis olduğunu demək düz deyil - sadəcə hər bir yeni nəsil digərindən fərqlənir. Dünyada baş verən hadisələri və tendensiyaları daha yaxşı anlamaq üçün fərqlilikləri və müxtəliflikləri nəzərə almaq lazımdır. Nəsillər nəzəriyyəsi-müxtəlif yaşlı insanlarla necə ünsiyyət qurmağı və onlara təsir etməyi nümayiş etdirən yanaşmadır. Hər bir insan fərdidir və bir-birindən fərqlənir. Lakin nəzəriyyə prizmasından baxdıqda, müəyyən ümumiləşmələr aparmaq olur.



# Nəsillər nəzəriyyəsi...



## Nəsillər və nəsillər nəzəriyyəsi nədir?

⇦ Əvvəli səh.1

Eyni nəsillərə aid olan insanlar 3 meyar üzrə birləşiblər:

* Öz həyatının müəyyən mərhələlərində eyni tarixi hadisələrin və sosial-mədəni ənənələrin təsiri altındadırlar. Məsələn, rəngli televizorların yaranması, personal kompüter dövrü, mobil telefonlar dövrü, ağıllı cihazlar, rəqəmsallaşma və s.
* Ümumi inanclar və oxşar davranış tərzi: Məsələn, gender bərabərliyi və ya patriarxat; dini təriqətlər; multikultural dəyərlər və s.
* Həyati təcrübə: Bu onlara öz nəslinə aid olma hissini verir. Məsələn, müharibə keçmiş insanlar, sonra isə ölkənin müharibədən sonra yenidən qurulması, pandemiya dövründə vərdişə çevrilmiş məsafədən iş və s.

Ştraussun və Xayın nəzəriyyələri bir çox sosioloqlar tərəfindən dəfələrlə nəzərdən keçirilmişdir, ona görə də daha bir neçə zaman kəsikləri üzrə "nəsil" variantları var.

Nəsillər nəzəriyyəsinə görə X, Y, Z adlandırılan nəsillər bölgüsü var ki, bunların hər biri təxminən 15-20 il davam edən zaman kəsiyini əhatə edir. Bölgü necə aparılır:

* *1901-1927 - böyük nəsil*
* *1928-1943 - susqunlar və ya sakit nəsil*
* *1944-1964 - beybi - bumerlər nəsli*
* *1965-1984 - X nəsli - bumerlər*
* *1985-2000 - Y nəsli - milleniallar*
* *2001-2016 - Z nəsli - zumerlər*

Baxmayaraq ki, Ştraussun və Xayın nəzəriyyələri Amerika tarixinin öyrənilməsinə istiqamətlənmişdir, o bir çox ölkələrdə geniş yayıldı. Nəsillər nəzəriyyəsi Amerikadan sonra CAR-da, daha sonra Avropa və Rusiyada yoxlanıldı. Rusiyada "RuGenerations - Russian School of Generation Theory" layihəsinin yaradıcısı Yevgeniya Şamisin fikrincə, bütün dünyada nəsillərin dəyişməsi praktiki olaraq eyni rejimdə baş verir. Bütün ölkələrdə nəsillərin dəyərləri oxşardır. Müxtəlif ölkələrin nəsilləri üçün "zaman sərhədləri" "üzən"dir, yəni iqtisadi inkişaf, sənaye templəri, ictimai - siyasi dəyişikliklərlə əlaqəli olaraq 5-6 il yerini dəyişə bilir. Həmçinin bu, demoqrafik keçid adlanan - doğum və ölüm tempinin dəyişməsi ilə də bağlıdır. Rus sosioloqları hesab edir ki, Z nəsli 2000-ci ildən sonra yaranıb. 1995-2000-ci illər ərzində anadan olanlar keçid nəslinə aid edilirlər, lakin dəyər oriyentasiyası və məlumat davranışlarına görə daha çox Y nəslinə aiddirlər.

Nəsillərin kiçik xarakteristikasını verməyə çalışaq:

### "Beybi - bumerlər"

1944-1964-cü illərdə anadan olanlardır, başqa sözlə onlara "susqunlar və ya sakitlər" də deyirlər. Cavanlıqda cəsarətli, ehtiraslı, adi həyat tərzini pozan insanlar olublar, möhkəm sağlamlığa malikdirlər. Yaşlılıqda - əksinə özləri üçün seçdikləri həyat tərzinin və stabilliyin tərəfdarıdırlar. Brendlərə loyal münasibət bəsləyirlər. Kollektivdə işləməyi bacarır və komanda oyunlarını sevirlər. Zərurət olduqda istirahətsiz həftədə 60 saat işləyən insanlardır. İdeyaya görə, ölkənin işıqlı gələcəyi üçün işləyən insanlardır. Onların etibarını qazandıqda bu uzunmüddətli olur. Onlar üçün alış-verişdə vacib parametr endirimlərdir. Texnologiyalarla araları yoxdur. Sosial şəbəkələrə az faiz daxil olan beybi - bumerlər əsasən televizor izləməyi sevirlər. Zəif tərəfləri onlara qarşı olan insanlara radikal münasibətləri və tənqidi sevməmələridir. Avtoritet olmağı sevirlər və səbrsizdirlər.

### X nəsil - "bumerlər"

X nəsli 1965-1984-cü illərdə doğulmuşlardır. Daha çox praqmatik, individualistdirlər, material dəyərləri yüksək qiymətləndirir, digər insanların emosiya və fikirlərinə əhəmiyyət verməyərək öz məqsədlərinə doğru gedirlər.

X nəsli artıq yaşlı insanlara çevrildiyi zaman müasir texnologiyalar yarandı. Bu gün onlar internet - mağazalardan müvəffəqiyyətlə istifadə edir, lakin mağazalardan, ticarət mərkəzlərindən alış-veriş etmək daha çox xoşlarına gəlir. Daha çox inadkar olaraq işə köklənibləər, təşəbbüs göstərməyə meyilli deyillər. X nəsil zövq və özünüreallaşdırmağa görə deyil, daha çox stabilliyə görə işləyirlər. Təhsil və karyeradan başqa X -lər üçün ailə rifahı da çox vacibdir. Öz ehtiyaclarına az xərc çəkir, daha çox valideynlərə və övladlarına kömək etməyə üstünlük verirlər. Azərbaycanda X nəslin valideynləri Böyük Vətən müharibəsinin şahidləridir. Kiçik X - lər körpələr evində böyümüş və ana diqqətindən müəyyən dərəcədə mərhum olmuş, müstəqil böyümüşlərdir. Lakin böyüdükdən sonra onlar öz övladları ilə daha yaxın olmağa çalışmışlar.

Amerika telekanalı "Nickelediona"nın araşdırmalarının nəticələrinə görə, X nəslindən olan valideynlərin 83%-i uşaqları özünə yaxın dost bilir.

Azərbaycanda X nəslin nümayəndələrinə nəzər salsaq, onların əksəriyyəti yeni texnologiyalara açıqdırlar, kompüter proqramlarından istifadə edirlər, mail yazışmalarını bacarırlar.

### Y nəsil - "milleniallar"

1985-2000-ci illər aralığında doğulmuş Y nəsli - milleniallar, öz valideynlərindən fərqli olaraq həyatı "iş -ev - iş" ssenarisi üzrə yaşamağı xoş stabillik deyil, dağıdıcı rutin hesab edirlər. Onlar dövlətdən yardım gözləmir, daha çox özlərinə işləməyə çalışırlar. Onlar, səmimi olaraq, dəyərləri gələcək işverənin dəyərləri ilə üst-üstə düşməsində maraqlıdırlar. Onlar öz karyeralarına ən aşağı pillədən başlamağı sevmirlər və istənilən işi təcrübə və bacarıq əldə etmək üçün müvəqqəti mərhələ hesab edirlər. Onların bir çoxlarını valideynləri təmin edir ki, bu da zövqverici iş axtarmaq üçün şərait yaradır. Y -lər bütün həyatı boyu oxumağa hazırdırlar, çünki informasiya əlçatanlığı buna imkan verir. Onlar təlim prosesini yorucu, qaçılmaz kimi deyil, dəbdə olan özünüinkişaf və fərdiliyin axtarışı kimi qəbul edir. Y-lər səhv ixtisas seçdiyini başa düşərsə, peşman olmadan universiteti ata da bilərlər. Onlara öz fəaliyyət çevrəsini, stabilliyi sevinc gətirən işə dəyişmək asandır.

Y nəslin nümayəndələri emosiyaların təsiri altında alış-veriş edə bilərlər. Və aldıqları məhsulların müqayisəli təhlilini həyata keçirir, alıcıların rəylərini oxuyurlar. Milleniallar mənfi təcrübəyə digərlərindən daha az fikir verirlər: onların 26%-i məyus olduğu brendlə tanışlığı davam etdirir.

Milleniallar həyatlarının çox hissəsini özünüdərketməyə həsr edir və yalnız 30 yaşından sonra ailə qurmaq haqqında düşünürlər. Onlar baba və nənələrindən üç dəfə çox subay qalır, ailə həyatını zərurət kimi deyil, hadisələrin inkişafı kimi qəbul edirlər. Lakin bu insanlar ümumi dəyərlərə, anlayışa, hörmətə əsaslanan möhkəm münasibətlər qurmağa çalışırlar.

### Z nəsil -"zumerlər"

Z nəsli - zumerlərin doğulma tarixləri təxmini olaraq 2001-2016-cı illəri əhatə edir. Sosioloqların fikrinə əsasən, Z nəsil digər nəsillərin keçirdiyi sosial zərbələri almayıb, yüksək tolerantlıq, optimizmlə fərqlənirlər. Bundan başqa, zumerlər istənilən informasiyaya açıq girişi olan rəqəmsal dünyada doğulublar, onlara kitabxanada, oxu zalında saatlarla vaxt keçirmək lazım deyil. Lakin istənilən suala asan cavab tapmaq imkanı aldadıcıdır, Z nəslin nümayəndələri verilənlərin detallı təhlilinə meyilli deyillər. Sosioloqlar əmindirlər ki, onlar vaxt ötdükcə etibarsız faktlar problemini həll edəcəklər.

Zumerlər öz valideynlərindən daha qənaətcildirlər. Cavanlar spontan alış-verişə meyilli deyillər, təklif edilən məhsul bolluğu və xidmətlərdən başlarını itirmirlər. Zumerlər istehlaka rasionaldırlar: 41% istirahət etmək üçün alış-verişlə məşğuldur. Xərclərə ciddi münasibət nəyi isə almaq qərarını düşünülmüş verməyə vadar edir. Araşdırmalar göstərir ki, 57% zumer, ilk növbədə, diqqəti məhsulun keyfiyyətinə yönəldir.

Z nəsil hələ indi maliyyə sərbəstliyi əldə edir, lakin marketoloqlar artıq onların simpatiyasını qazanmağa çalışırlar. Çünki çox zaman valideynlərin xərcləri uşaqların seçimindən asılıdır. "JWT İntelligence"-in araşdırmalarına görə, 65% valideyn səyahət planını, 32% ev əşyası alqısında, 29% avtomobil seçimində Z nəsildən olan uşaqlarla məsləhətləşir.

Müasir Z - nəsil hər bir yenini və unikal olanı sevir, hətta onlarda emosiyalar zənginlikdən daha dəyərli olduğu üçün alışdansa icarəyə götürməyə üstünlük verir. Z nəsil istəyir ki, ətrafdakılar onların hər bir addımına reaksiya versin, vacib deyil - neqativ və ya pozitiv. Bəziləri özgələrinin fikrindən asılıdır, lakin bu zaman özləri digərlərinin fikirlərinə, statuslarına, qazanclarına, inamlarına loyal münasibət bəsləyirlər.

Hazırda biz iki nəslin - Y və Z nəslin nümayəndələri ilə çalışırıq.

Millenialları Yer üzündən siləcək nəsil Z artıq həyatdadır. Bu nəsil yalnız internet ilə böyümədi, onlar İnstaqram hesabı ilə doğuldular. Bu nəsil virtual dünya nəsli kimi də tanınır və süni intellektlə paralel inkişaf edir. Onların hətta Nobel mükafatçısı da var: Malala Yusufzay 1997-ci ildə doğulub, lakin onu XXI əsrin birinci nəslinə aid edirlər. Onlar daha çox konservativdir, bu cavan nəsil artıq dünyanı dəyişməyə başlayıb.

*Nəsillər nəzəriyyəsini bilmək nə üçün lazımdır? Bilik iqtisadiyyatına nə lazımdır? Və tələbələr özləri nə istəyirlər?*

Dünya alimləri müasir gəncləri necə öyrədək mövzusunda daim diskussiyalar aparır. Kimi və necə öyrətmək - sosial şəbəkələr və texnologiyaların sürətli inkişafı erasında həll edilməsi vacib olan həyati zəruri bir məsələdir. Marketoloqlar nəsil yanaşmasını - məhsulu müxtəlif məqsədli auditoriyalara necə sata bilmələri üçün istifadə edirlər. Sosioloqlar nəsillərə demoqrafik proseslər və tarixi kontekst prizmasından baxırlar. Siyasətçilər nəsillər nəzəriyyəsini səsvermə zamanı seçkilərin nəticələrinə təsiri ilə əlaqəli nəzərdən keçirirlər. Daha bir sahə də var ki, nəsil dəyişmələri və dəyər oriyentirlərinin dəyişməsinin öyrənilməsi həyati vacibdir. Bu, təhsil sahəsidir. Bu sahənin mütəxəssislərinə parta arxasına əyləşən, universitetlərə qəbul olan uşaqları necə öyrətmək lazım olduğunu başa düşmək zəruridir.

*"Onlar başa düşmürlər" məhdud çərçivədən necə çıxmaq və müəllim stolunun qarşısında əyləşən tərəflə dialoqu necə aparmaq lazımdır? Bəlkə bu stolu tamamilə atmaq və ya nə iləsə dəyişmək lazımdır?*

Hər bir təhsil işçisi, müəllim-pedaqoq psixoloji nöqteyi-nəzərdən gənc nəsillə münasibət qurmaq və formalaşdırmaq qaydalarını mütləq şəkildə bilməlidir.

**Müasir gəncləri necə öyrədək?** YouTube klassik universitetləri əvəz edə bilərmi? Təhsil sistemini növbəti nəsillərin təlimi, dəyərləri, qavrama xüsusiyyətlərinə necə hazırlamalı? Əgər iki sonrakı addım haqqında düşünməsək, təhsil sistemi yerində addımlayacaq.

Hazırda qlobal əmək bazarında trend olan - rutin olmayan bacarıq və vərdişləri tələb edən mövqelərin artmasıdır. Süni intellekt əsrində tələb olunanlar sırasında olmaq üçün gənc nəsil daha çox oxumalı, yeni vərdişlərə yiyələnməli, fəaliyyət növünü dəyişməlidir. Onlar özlərinə sual verə bilərlər: təkmilləşən texnologiyalar şəraitində 5-6 il akademik təhsilin alınmasına sərf etməyə dəyərmi?

Növbəti nəsil hansıdır? " nəsli" və universitetlərin qürubumu? Universitetləri bilik fabriki və diplom istehsal edən müəssisə kimi qəbul edirikmi? Unutmaq olmaz ki, universitetlər - yalnız diplom deyil, həm də ünsiyyət üçün mühitdir.

Bu tip suallara cavab vermək üçün gənc nəsli yaxşı tanımaq lazımdır.

Əgər MDB ölkələri ilə inkişaf uyğunluğunu nəzərə alsaq, Azərbaycanda 2021-ci ilin dekabr ayına olan statistik məlumatlara əsasən, təqribi olaraq,

* *Baby - bumerlər - bütün əhalinin 11% (1.373 min)*
* *X nəsli - bütün əhalinin 28%-ni (2.840 min)*
* *Y nəsli - bütün əhalinin 24%-ni (2.438 min)*
* *Z nəsli - bütün əhalinin 35%-ni (3.565 min) təşkil edir.*

Hazırda Z nəsli Azərbaycanda ən böyük nəsildir və təxmini olaraq ölkə əhalisinin 35 faizini təşkil edir.

Qeyd etmək lazımdır ki, əksər təhsil liderləri və təhsilverənlər təhsil müəssisələrinə gələcək və ya artıq Z nəslinə mənsub olan yeni nəslin (2000-2020-ci illər arasında doğulmuş) düşüncə və davranış tərzindən xəbərsizdirlər. Z nəslinin öz ideyaları var, onların istək və ehtiyacları kəskin şəkildə dəyişib. Təhsilverənlərin bu yeni potensial tələbələr qrupuna "çatması" və hər il onları saxlaması üçün əvvəlcə Z nəslinin nəyi fərqli etdiyini başa düşməlidirlər. Yeni nəsil - Z nəslin dəyərləri, xüsusiyyətləri və onların təcrübələrinin gələcək təhsil haqqında fikirlərinə necə təsir etdiyi barədə bir az fikir yürütmək zəruridir. Bir sözlə, təhsilverənlər öz gələcək tələbələrini tanımalıdırlar.

**Dünya üzrə Z nəslin statistikasına baxaq:**

* Z - nəsil dünya əhalisinin 26%-ni təşkil edir; Yəni dünya üzrə 2 mlrd Z nəsli deməkdir; (Issuu)
* Z - nəslin 55 %-i ekoloji cəhətdən təmiz və sosial cəhətdən məsuliyyətli brendləri seçir; (99 designs)
* Z - nəsli 2025-ci ilədək dünya işçi qüvvəsinin 27%-ni təşkil edəcək; (MCCRİNDLE)
* Z - nəslin nümayəndələrinin 91%-i texnologiyaların iş seçimində həlledici amil olduğunu bildirir; (DELL)
* Z - nəslin nümayəndələrinin 97%-i yeni məhsullar haqqında sosial mediadan məlumat alır; (Forbes, Ypulse)
* Z - nəslin 58%-i yaxşı iş - həyat balansına sahib olmaq istəyir; (Issuu)
* Z - nəslin 53%-i son 6 ayda mobil cihaz vasitəsilə alış - veriş edib; (Hire Right)
* Z - nəslin 98%-i smartfon sahibidir; (Global WebIndex)
* Z - nəsli və millenialların 41% sponsor reklamını gördükdən sonra hərəkətə keçir; (Criteo)
* Z - nəslin ekran vaxtı ilə bağlı statistikası göstərir ki, yeniyetmələrin 71%-i gün ərzində 3 saat və daha çox videolara baxır;
* Z - nəslin 52%-i "Google"-un rəsmi statistikasına əsasən, gün ərzində mesajlaşma proqramlarından istifadə edir; yeniyetmələrin 42%-i üç saat və daha çox oyun oynamağa sərf edir; (Think With Google)
* Z - nəslin 42%-i məhsulun nəzərdən keçirilməsində iştirak etməkdə maraqlıdır; (NRF)
* Z - nəslin üçdə birindən bir qədər az hissəsi bir marka (brend) ilə öz şəxsi həyatları haqqında məlumatları paylaşmağa hazırdır; (IBM)
* Z - nəslin 70%-indən çoxu ailələrinin qida və məişət məhsulları üzrə alış-veriş qərarlarına təsir göstərir; (IBM)
* Z - nəslin 7-17 yaş arasında olan nümayəndələrinin 44%-i bakalavr dərəcəli bir valideynlə yaşayır; (Pew Research Center)
* Z - nəslin nümayəndələrinin 70%-i üçün iş seçərkən sağlamlıq sığortası ən yüksək tələbdir; (PR Newswire)

**Y və Z arasında münasibətlər haqqında nə deyə bilərik?**

* Y və Z nəsilləri yaxındırlar - rəqəmsal yerlilər kimi. Y - bugünkü cavan professionallar və tələbələrdir. Onlar artıq çətin iqtisadi reallıqlarla və institutların zəifləməsi ilə üzləşiblər, Z-lər isə böyük məktəblilərdir, onlar artıq dəqiq sərhədləri olmayan təhsil sistemi krizisindədirlər. Bu nəsillər çox zaman bir - biri ilə evdə və məktəbdə görüşürlər.
* Dəyişikliklərə məruz qalan rəqəmsal sənaye, təhsil, texnologiyalar öz istifadəçiləri kimi bu nəsli nəzərdə tuturlar. Lakin Z nəsli Y nəslin tam əksidir, ya da onun sonuncu versiyasıdır.
* Z ən çox artan nəsildir. Milli və irqi tərkibinə görə bu nəslin ən fərqli nəsil olacağı gözlənilir.
* Z nəslin nümayəndələri inanırlar ki, professional həyatda müvəffəqiyyət qazanmaq üçün əvvəlki nəsillərdən daha çox işləməlidirlər.
* Qlobal problemlərə reaksiya verirlər, volonter kimi işə başlamaqda maraqlıdır və hazırda pul almadan işləyir.
* Z nəslin valideynləri hiper himayədən əziyyət çəkiblər, ona görə də Z -lərə milleniallardan daha çox azadlıq verilib, onlar daha müstəqildir.
* Hesab edilir ki, milleniallar infantildir, bu "selfie" nəslidir. Z nəsli isə vətəndaşlıq hissinə daha çox yiyələnən, daha "yaşlı" görünən bir nəsildir. Bundan başqa, Z nəslində müəyyən inciklik hissi formalaşır. Çünki onların xaricdə təhsilalma, daha keyfiyyətli təhsilalma, səyahət imkanları azdır. Onlar görürlər ki, iqtisadi situasiya ailələrinə necə təsir edir və nəticə çıxarırlar.
* Z -lər "qamçı vurulmayan" nəsildir. Z - lər "sadəcə olaraq olmaz- vəssəlam" tezisini başa düşmürlər. Onlarla əsaslandırılmış söhbət apardıqda əməkdaşlıq etməyə hazırdırlar. Onlarla manipulyasiya etmək çətindir.
* Pul və maliyyəyə gəldikdə isə Y ilə Z bir-birinə heç oxşamır. Y hesab edir ki, "nə olursa olsun arzuna çatmalısan", Z-lər isə öz qərarlarının maliyyə nəticələrinə fokuslanırlar.
* Maliyyə konservativliyi ilə uyğun olaraq Z-lər sahibkar ruhu nümayiş etdirirlər. Onlar əsasən kiçik sahibkarlıqla və ənənəvi tələbə işlərində məşğuldurlar (ofisiant), 30 yaşına qədər bir neçə karyera qurmaq fikrindədirlər.
* Y nəsli kimi, Z nəsil internet olmadıqda çox narahat olur, hətta evdən internet olan yerə getmək qərarına da gəlirlər. Hesab edirlər ki, internet onlara məqsədə çatmağa kömək edir.
* Z nəsil televizora baxaraq, elektron qurğuda bir neçə məsələ həll edir, onlayn araşdırmalar aparır, distant təhsil alır, tapşırıqların həllində Youtube və sosial mediadan istifadə edir.
* Rəqəmsal dünyada doğulanlar, onun məhdudiyyətlərini bilən Z - lər, kiberoptimist olaraq qalır ki, bu da elm və texnologiyanın sonrakı inkişafı üçün vacibdir.

**İsrayıl İSGƏNDƏROV,**
*fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent,*
*ADPU-nun nəzdində ADPK-nın direktoru,*

**Sevinc HACIYEVA,**
*ADPU-nun nəzdində ADPK-nın*
*Davamlı təhsil və təlim şöbəsinin müdiri*

# Bakı Mühəndislik Universitetində "YENİ Klub"

Bakı Mühəndislik Universitetində (BMU) "YENİ Klub"un təsis toplantısı keçirilib.

Toplantıda çıxış edən BMU-nun rektoru, professor Havar Məmmədov dövlətin uğurlu gənclər siyasətindən ətraflı bəhs edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətin aparıcı qüvvəsi olan gənclərin elm və təhsilinə hərtərəfli dəstəyin göstərildiyini, formalaşan gənc kadrların ölkəmizin inkişafına töhfələr verdiklərini vurğulayan H.Məmmədov, eyni zamanda gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi üçün görülən işləri xüsusi qeyd edib. 44 günlük Vətən müharibəsinin ölkəmizdə güclü vətənpərvərlik hisslərinin daşıyıcısı olan, savadlı, milli ruhda tərbiyə almış gənc nəslin formalaşdığını bir daha isbat etdiyini önə çəkən rektor müasir gəncliyin Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin, Prezident İlham Əliyev idarəçiliyinin yetirmələri olduğunu bildirib.

BMU-da gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların şəxsiyyət kimi yetişməsi üçün görülən işləri sadalayan H.Məmmədov universitetdə tələbələrin sosial-ictimai həyatının təşkilində mühüm rol oynayan Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Həmkarlar İttifaqı Komitəsi, həmçinin müxtəlif tələbə klublarının səmərəli fəaliyyətindən söz açıb. Rektor BMU-da gənclərin karyera məsələlərinin xüsusi diqqət mərkəzində saxlanıldığını, məzunların işlə təmin olunması göstəricisinin yüksək olduğunu nəzərə çatdırıb və yeni yaradılan klubun universitetin Müəssisələrlə əlaqələr və karyera departamenti ilə əlaqəli fəaliyyəti, həmçinin bir sıra məsələlərlə bağlı tövsiyələrini verib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında ölkənin ali təhsil müəssisələrində təsis olunan "YENİ Klub"ların fəaliyyətinə diqqət çəkib. Sədr bildirib ki, bu klublar tələbələrin iştirakı ilə sosial-ictimai, vətənpərvərlik, fərdi inkişaf, idman və bir sıra digər istiqamətlərdə müxtəlif təşəbbüslərin həyata keçirilməsində, çoxşaxəli layihələrin reallaşdırılmasında aktiv rol oynayacaq.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev də ölkədə gənclər siyasətinin prioritet istiqamətlər sırasında yer aldığını, gənclərin inkişafının dövlət tərəfindən hər zaman dəstəkləndiyini bildirib. YAP-ın bu siyasətə müxtəlif proqram və layihələr vasitəsi ilə böyük töhfələr verdiyini deyən A.Əliyev "YENİ Klub"un tələbələrin təhsildən sonrakı peşəkar fəaliyyətlərə hazırlanmasında faydalı olacağını söyləyib.

Daha sonra "YENİ Klub"un rəhbəri Adəm Babayev, koordinatorlar Cavad Məmmədli, Rəvan Hacıyev, Aişə Məhərrəmova təqdimatlarla çıxış ediblər. Təqdimatlarda "YENİ Klub"un fəaliyyəti, məqsədləri, istiqamətləri, həyata keçiriləcək layihələr (yarışlar, müsabiqələr, təlimlər, xarici dillərdə tədbirlər) və s. haqda ətraflı məlumat diqqətə çatdırılıb, digər ali təhsil müəssisələrinin nəzdindəki klublarla birgə fəaliyyətin əsas istiqamətlərinə toxunulub.

# ADU dünya reytinqində

## Azərbaycan Dillər Universitetinin növbəti uğuru

Məlumat verildiyi kimi, Dünya Universitetləri Reytinqi QS sahələr üzrə universitetlərin reytinqini (Subject Rankings 2023) açıqlayıb və Azərbaycan Dillər Universiteti "müasir dillər" bölməsi üzrə (301-340), Azərbaycan Dövlət İqtisad Universiteti isə "iqtisadiyyat və ekonometrika" sahəsi üzrə (501-530) dünyada ən yaxşı universitetlər qrupuna daxil olub. Azərbaycandan ilk dəfə iki ali təhsil müəssisəsi QS sahələr üzrə dünya universitetlərinin reytinqində yer alıb. Qeyd etmək lazımdır ki, sözügedən reytinqdə 161 ölkədən 1594 ali təhsil müəssisəsi iştirak edib. 2023-cü ilin reytinq coğrafiyası genişlənərək Avropa, Asiya və Şimali Amerikanın müxtəlif universitetlərini əhatə edir.

Ümumiyyətlə, reytinq ideyası ilk dəfə Ben Vildavski tərəfindən "The Great Brain Race: How Global Universities are Reshaping the World" adlı kitabında qeyd olunaraq "THE" (Times Higher Education) jurnalının o vaxtkı redaktoru Con O'Liriyə verilmişdir. "THE" (Times Higher Education) həmin bu layihəni həyata keçirmək üçün QS (Quacquarelli Symonds) şirkəti ilə tərəfdaşlıq etməyi seçdi.



Dünyada aparıcı, ən etibarlı və ən çox baxılan reytinqlər "QS reytinqi","THE (Times Higher Education)" və "Şanxay reytinqi" (Shanghai Ranking) hesab olunur. QS reytinqi Beynəlxalq Reytinq Ekspert Qrupu (IREG) tərəfindən təsdiqlənir və dünyada ən çox oxunan universitet reytinqlərindən biri kimi qəbul edilir. QS (Quacquarelli Symonds) şirkəti 2009-cu ildən artıq öz metodologiyası və yanaşmasına əsasən reytinq cədvəlini hazırlayır, dünya universitetlərinin hər il həmin reytinq üzrə qiymətləndirməsini aparır. Belə ki, QS World University Rankings müxtəlif universitet reytinq nəşrləri arasında "ən nüfuzlu" kimi qiymətləndirilir.

Qeyd edək ki, QS sistemi üç istiqaməti əhatə edir: dünya üzrə ümumi reytinq, müxtəlif fənlər və sahələr, eyni zamanda da müstəqil regionlar üzrə.

QS sahələr üzrə dünya universitetlərinin reytinqini 5 kateqoriyaya uyğun qiymətləndirir və bu 5 kateqoriya 54 sahəni əhatə edir. Reytinqin qiymətləndirmə metodologiyasında aşağıdakı indikatorlar nəzərə alınmışdır:

*Akademik nüfuz.* Ümumi balın 40 faizini təşkil edən akademik nüfuz tədris və tədqiqat keyfiyyətinə baxır. Sözügüdən qurum təhsil sahəsindən 130000-dən çox ekspert rəyini toplayır və dünyada ən böyük akademik rəy sorğusunu yaradır.

Bu istiqamətdə ADU-nun Daxili keyfiyyət təminatı sistemi üzrə təhsil proqramlarının mütəmadi olaraq monitorinqi, güclü və zəif tərəflərin aşkar edilməsi; risklərin ölçülməsi, eləcə də inkişaf istiqamətlərinin proqnozlaşdırılması;fənn proqramları və sillabusların tələbəyönümlülük istiqamətində təkmilləşdirilməsi; bununla bağlı sorğuların keçirilməsi (həm təhsilverənlər, həm də təhsilalanlar arasında) və onların təhlili kimi tədbirlər tədrisin keyfiyyətinin yüksəldilməsinə zəmin yaradır.

ADU Azərbaycanda 20-dən çox dilin müxtəlif tədris proqramları vasitəsilə tədris olunduğu unikal bir Universitetdir. ADU Bolonya prosesinin tələblərinə cavab verən çevik kredit sistemini, Beynəlxalq Keyfiyyət Təminatı standartlarını və Azərbaycanda Avropa Kredit Transfer Sistemini (AKTS) tətbiq edən ilk dövlət universitetidir. Azərbaycan Dillər Universiteti 2017-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan ilk universitetlərdəndir. Azərbaycan Dillər Universiteti (ADU) bakalavr pilləsində təhsil, filologiya, tərcümə, jurnalistika, regionşünaslıq və beynəlxalq münasibətlər ixtisasları üzrə mütəxəssis hazırlayan ölkənin qabaqcıl universitetlərindən biridir.

Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə ADU üçün ilk növbədə xarici ölkələrin ali təhsil müəssisələri ilə əlaqələrin qurulması, əməkdaşlığın yüksələn xətlə inkişafı prioritet istiqamətdir. İkili diplom layihələri üzərində iş, innovativ proqramların, müəllim-tələbə mübadiləsi tədrisin keyfiyyətinin artırılmasına bilavasitə təsir göstərir.

Bu gün Azərbaycan Dillər Universitetində istər müəllim heyətinin, istərsə də tələbə kontingentinin peşəkar inkişafının, bilik və bacarığının artırılması məqsədilə yerli və xarici ekspertlər tərəfindən bır sıra tədbirlər həyata keçirilir:

- *Arizona Dövlət Universitetinin TEFL/TESOL sertifikat proqram təlimi;*
- *Bakı Amerika Mərkəzi tərəfindən tələbə və müəllimlər üçün mütəmadi olaraq təkmilləşmə məqsədi ilə təşkil olunan təlimlər (https://www.facebook. com /bakuamericancenter);*
- *İngilis dilində danışıq bacarıqlarını artırması məqsədilə dil daşıyıcıları tərəfindən keçirilən Conversation Club-lar;*

Tədris-metodiki konfranslara gəldikdə isə Azərbaycan Dillər Universiteti ilə Dokuz Eylül Universiteti arasında son üç ildə davamlı olaraq xarici dilin tədrisi və öyrənilməsi istiqamətində silsilə tələbə və müəllim konfranslarını qeyd edə bilərik.

Azərbaycan Dillər Universiteti və Macarıstanın Peç Universiteti arasında bağlanmış müqaviləyə əsasən ECL İmtahan Mərkəzində Alman dili B1 səviyyəsi üzrə beynəlxalq imtahanlar keçirilir.

ADU-da fəaliyyət göstərən 20-dən çox ölkəni təmsil edən mərkəzlər sayəsində həmin ölkənin mədəniyyətini, tarixini, ədəbiyyatını və s. öyrənmək şansı var. Tələbələrimiz müxtəlif proqramlar, ikili diplom layihələri çərçivəsində digər ölkələrdə təhsil alırlar. Universitetimizə marağın səbəblərindən biri də əmək bazarının tələblərinə uyğun kadr hazırlığını həyata keçirməyimizdir. İldən-ilə yeni ixtisasların yaranması, tədris dili ingilis dilində olan (beynəlxalq münasibətlər, jurnalistika, ibtidai sinif müəllimliyi, məktəbəqədər təhsil, amerikaşünalıq) ixtisaslarına yer verilməsi, zamanın tələbinə uyğun "Ermənişünaslıq" ixtisasının qəbul planına salınması buna bariz nümunədir *(https://adu.edu.az/az/adu-haqqinda/ASP/)*.

Son illərdə ADU-nun qəbul planında olan göstəricilərə diqqət yetirsək (orta hesabla 98,5%) bir daha universitetə marağın artdığının şahidi oluruq.

*İşəgötürənlər arasında nüfuz.* Bu qiymətləndirmədə məzunların uğurlu karyeraya necə hazırlandığı və onların bacarıqlara, kompetensiyalara yiyələnməsi nəzərə alınır. Təhlil məzunlar arasında aparılan sorğuya əsasən müəyyən edilir.

Son illərdə Azərbaycanda rəqabətqabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacını ödəmək üçün gənclərin yüksək səviyyədə təhsil alması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib.

Azərbaycan Dillər Universiteti (ADU) bakalavr pilləsində təhsil (pedaqoji), filologiya, dil və ədəbiyyat müəllimliyi, tərcümə, jurnalistika, regionşünaslıq və beynəlxalq münasibətlər ixtisasları üzrə mütəxəssis hazırlayan ölkənin qabaqcıl universitetlərindən biridir. ADU bakalavriatura, magistratura və doktorantura səviyyələri üzrə tədqiqat, qabaqcıl təlim və ixtisaslaşmış təhsil proqramlarını təklif edir. 2023-cü ilin statistik məlumatlarına görə, ADU-da təhsilalanlar hazırda 6722 bakalavriat, 584 magistrant və 120 doktorantdan ibarətdir. Bütün fakültələr üzrə universitetdə 800-dən çox müəllim/təhsilverən fəaliyyət göstərir.

Universitetdə istedadlı tələbələrə, magistrant və doktorantlara yüksək qiymət verilir və ən qabaqcıl təhsilalanlar müxtəlif proqramlar vasitəsilə karyeralarını qurmağa təşviq olunurlar. Həmçinin, rektor Kamal Abdullanın qərarı ilə 2017-ci ildən təşkil olunan "Bir günlük xəlifə" layihəsi (tələbələrin universitetdə rəhbər vəzifə tutmaları) çərçivəsində təhsilalanların idarəetmə prosesində iştirakına imkanlar yaradılır. Onlar bir gün ərzində universitetdə tədris prosesi, inzibati və sair işlərlə bağlı qərarlar qəbul edir, bir sıra yeniliklər həyata keçirirlər.

ADU-da mütəmadi olaraq tanınmış yerli və beynəlxalq elm və ictimai xadimləri, universitetin uğurlu və fəxri məzunları, dilşünas və ədəbiyyatşünas, həmçinin diplomat və səfirlərlə (səfir saatı) görüşlər təşkil olunur. Təbii ki, bu istiqamətdə görülən işlər, müəssisələrarası qurulan əlaqələr tələbələrin gələcək karyera inkişafına müsbət təsir göstərməkdədir.

Savadlı gənclərin, yüksək intellektə sahib olan abituriyentlərin universitetimizə marağını artırmaq, mövcud olan ixtisaslarla tanış etmək məqsədilə orta məktəblərlə əlaqələr genişləndirilir, müxtəlif tədbirlər həyata keçirilir.

*İstinadlar/H-indeks.* Elsevier-in tərkib hissəsi olan Scopus-un məlumatlarından istifadə edilərək universitetin professor-müəllim heyətinin son beş il ərzində elmi-tədqiqat işlərinə, məqalələrinə olunan istinadların ümumi sayı universitetin reytinqdəki mümkün xalının 20%-ni təşkil edir.

Humanitar elmlərin digərlərinə nisbətən elmi-metrikasının (ölçülməsi) çətinliklə əldə edilməsini nəzərə alsaq, göstərilən faiz böyük uğur kimi hesab oluna bilər. İngilis dili beynəlmiləl dil olduğuna görə sitatlar məhz bu dildə daha çox oxucu kütlə qazanır. Təsadüfi deyildir ki, ADU-nun "Strateji İnkişaf Planın"dakı SWOT analizində güclü tərəflərdən biri də xarici dilin sıx əməkdaşlığa imkan verməsi və dilyönümlü ixtisasların olmasıdır.

Son uğurlu addımlardan biri Universitetin Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin metodiki dəstəyi ilə "Google Akademiya"da, beynəlxalq nüfuzlu məlumat bazalarında alim və tədqiqatçıların akademik profilləri yaradılır və bu platformada elmi istinadların, H-indeksinin, İ-10 indeksinin monitorinqi keçirilir. Elmi istinadların artması,elmi məqalələrin tərtibi qaydaları və onların impakt-faktorlu jurnallarda nəşrinin təşviq olunması məqsədi ilə mütəmadi maarifləndirici tədbirlər, elmi seminarlar keçirilir.

Azərbaycan Dillər Universitetində "ADU-nun Elmi Xəbərləri", "Dil və ədəbiyyat" jurnalları çap olunur. Universitet əməkdaşları "JSTOR" və "EBSCO" kimi beynəlxalq məlumat bazalarından yararlanmaq imkanlarına malikdirlər.

2023-cü il üçün fəaliyyət planına əsasən ADU-nun akademik heyətin elmi tədqiqatlarının beynəlxalq elmi platformalarda daha yüksək indeksləşdirilməsinə nail olmaqdır. Bununla bərabər akademik dürüstlüyü qorumaqla sərbəst (açıq) istifadəni təşviq edən siyasət və strategiyaları irəli sürülür. Xarici və ortaq imkanlardan maksimum dərəcədə istifadə edərək, elmi məlumat kolleksiyalarının rəqəmsallaşdırılmasının sürətləndirilməsi də hədəflərimizdəndir.

*Beynəlxalq elmi əməkdaşlıq.* Qiymətləndirmədə digər 10% ali təhsil müəssisəsinin çoxşaxəli beynəlxalq əlaqələri, əcnəbi tələbələrin və xarici müəllim heyətinin sayına görə ölçülür. Bu göstərici təbii ki, universitetə marağın artmasına səbəb olur.

ADU beynəlxalq təhsil və təlim modellərinə əsaslanan, geniş tərəfdaşlıq imkanları ilə bənzərsiz proqramlar təqdim edən bilik ocağıdır. ADU Türkiyə, ABŞ, Böyük Britaniya, Fransa və digər Avropa institutlarının ali təhsil müəssisələri, həmçinin YUNESKO-nun tərkibində fəaliyyət göstərən tərcümə şöbəsi ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq sayəsində son illər ərzində tələbə müdabiləsi intensivləşmişdir. ADU dünyanın müxtəlif universitetləri ilə akademik əməkdaşlıq münasibətləri proqramlarını mütəmadi olaraq nəzərdən keçirməyə, tədris və təlim metodologiyasını təkmilləşdirməyə, mübadilə proqramları və ikili diplom layihələri (Erasmus+ mübadilə proqramı, Mövlana mübadilə proqramı, ABŞ layihələri, Esseks Universiteti, Oslo Universiteti ilə və s. ikili diplom) vasitəsilə akademik heyətin və tələbələrin beynəlmiləlləşməsinə şərait yaradır. Ümumilikdə, universitetimizin xarici əlaqələri çoxşaxəlidir. Hazırda ADU-da 20 dən çox ölkənin (İspan, İtalyan, Amerikan, Fransız oxu zalı, Skandinav, Türkiyə, Macar, Rumın, Koreya, Serb, Avstriya, Germanistika, Çin, Alman oxu zalı, Frankofoniya, Yapon, Yunan, Hind, İndoneziya, İsrail, Pakistan) dil və mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Mərkəzlər Azərbaycan və müvafiq ölkələr arasında elm, təhsil və mədəniyyət sahələrində əlaqələrin möhkəmləndirilməsinə və inkişafına xidmət edir. Mərkəzlərdə həm yerli, həm xarici mütəxəssislər çalışır, onlar həmçinin, müvafiq dilləri tədris edir, "dəyirmi masa" və debatlar təşkil edirlər.

Nüfuzlu dövlət universitetlərindən biri olaraq, Azərbaycan Dillər Universiteti bir çox daxili imkanlara malikdir. Bu baxımdan, ADU-nun əsas missiyası dünya standartlarına uyğun uzunömürlü, fasiləsiz təhsil əldə etmiş yüksək səviyyəli peşəkar dil mütəxəssisləri və digər ixtisaslara yiyələnmiş kadrlar yetişdirmək, eləcə də universitetimizi ölkəmizdə və dünya arenasında layiqincə təmsil etməkdir.

ADU-nun Strateji inkişaf planında qeyd olunan dəyərlərimiz aşağıdakılardır:

* **İnteqrasiya:** Tədrisin keyfiyyətini artırmaq və beynəlxalq təcrübədən yararlanmaq məqsədilə xarici universitetlərlə əlaqələri genişləndirmək, dünya universitetləri ilə ikili və çoxtərəfli layihələrə qoşulmaq, akademik mobilliyə imkan yaratmaq.
* **Global biliklər:** Dünyada mövcud olan elmi, nəzəri və fundamental bilik bazalarından akademik etikaya riayət etməklə və müəllif hüquqlarını qorumaq şərtilə faydalanmaq.
* **Müasirlik:** Müasir cəmiyyətin ehtiyac və tələbatına uyğunlaşdırmaq məqsədilə tədris prosesini innovasiyalarla zənginləşdirmək, informasiya texnologiyalarından geniş istifadə etmək, mediada baş verən yeniliklərdən xəbərdar olmaq və informasiya savadlılığını artırmaq.
* **Yaradıcılıq:** Tənqidi təfəkkür, tənqidi düşüncə və müstəqil fəaliyyəti qiymətləndirimək.
* **Çeviklik:** Şəraitə uyğun olaraq müxtəlif metod və üsullardan istifadə etmək, yaranmış problemləri dərhal aradan qaldıraraq təhsilin davamlılığını qorumaq və inkişaf etdirmək.
* **Multikulturalizm:** Azərbaycan xalqının həyat tərzi olan mulikultural dəyərlərin beynəlxalq əlaqələrdə geniş təbliğ edilməsilə bağlı dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək.

Günümüzdə iş mühitinin tələblərinə uyğun olaraq təhsil sistemində yenilik hesab olunan digər bir tendensiya hibrid kadrların (iki və daha artıq sahədə ixtisaslaşmış) yetişdirilməsidir. Yeni yanaşmalar xarici dillərin tədrisinin bu sahədə tətbiqini zəruri edir. Universitetimizdə tədris olunan xarici dil müəllimliyi, dilşünaslıq, tərcüməçilik və s. ixtisaslar günümüzün və gələcəyin peşəkar kadrlarının yetişdirilməsində əsas faktorlardan birinə çevrilib. Əminliklə qeyd edə bilərik ki, sadalanan ixtisasların inkişafı istər bakalavriatura, istərsə də magistratura pilləsində öz aktuallığını itirmədən, mütəxəssislərin təfəkkürünün geniş imkanlarını üzə çıxararaq işsizlik riskinin qarşısının alınmasında mühüm rol oynayacaq. Ölkəmizin vətəndaşlarının əksəriyyətinin yeniliklərə açıq düşüncə tərzi, sürətlə inkişaf etməyə meyilli olmasını nəzərə alaraq Azərbaycanda təhsil sisteminin modernləşdirilməsi universitetlərin dil baxımından təkmilləşməsi təşəbbüsləri və paralel olaraq müvafiq ictimai təbliğatların aparılması fonunda qısa müddətdə və uğurla həyata keçirilə bilər. Azərbaycan Dillər Universiteti olaraq biz də üzərimizə düşən məsuliyyəti anlayaraq əlimizdən gələni etməyə çalışırıq. QS (World University Rankings) reytinqində universitetimizin yer alması dünya gənclərinə arzuladığı universitet seçimində köməklik göstərəcək, eyni zamanda universitet haqqında – ətraflı şəkildə tədrisin keyfiyyəti, tələbə həyatı, karyera inkişafı, tədqiqat sahələri və s. haqqında məlumatları Azerbaijan University of Languages: Rankings, Fees & Courses Details | Top Universities saytından əldə edə biləcəklər.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edildiyi bir dövrdə və "Elm Günü" ərəfəsində belə bir nailiyyətin olması həm məsuliyyətimizi artırır, həm də yeni uğurlar qazanmağa sövq edir.

**Sevinc ZEYNALOVA,**
*ADU-nun Tədris məsələləri üzrə prorektoru, filologiya elmləri doktoru, professor*

# Türk alimlər Nobel mükafatına bir addım da yaxınlaşdılar



"Dünyada xərçəngin immunoterapiyasında Özlem Türeci və Ugur Şahin qədər təcrübəyə malik olan elm adamları, demək olar ki, yoxdur"

Almaniyanın nüfuzlu elmi mükafatlarından hesab olunan Meyenburg mükafatı bu il biotexnologiya şirkəti olan "BioNTech"in qurucusu və icraçı direktoru, Mayns Universitetinin III Tibb Klinikasının eksperimental onkologiya üzrə professoru Uğur Şahinə, xanımı, "BioNTech"in həmtəsisçisi, Mayns Universitetinin professoru Özlem Türeciyə, eləcə də Pensilvaniya Universitetinin (ABŞ), Szeged Universitetinin (Macarıstan) immunologiya professoru Katalin Karikoya təqdim olunub. Tədqiqatçılar bu mükafata xərçəngə qarşı peyvəndlərin və immunoterapiyaların hazırlanmasında böyük töhfələrinə görə layiq görülüblər. Mükafat qaliblərə Helmholtz Onkologiya İnstitutunun (HI-TRON) Mainz illik simpoziumunda təqdim olunub.

Meyenburq Fondunun İdarə Heyətinin üzvü və Heydelberq Universiteti Milli Xərçəng Araşdırmaları Mərkəzinin (NCT Heidelberg) idarəedici direktoru Stefan Fröhling türk alimlərin mükafata layiq görülməsini belə izah edib: "Dünyada xərçəngin immunoterapiyasında Özlem Türeci və Uğur Şahin qədər təcrübəyə malik olan elm adamları, demək olar ki, yoxdur. Hər ikisi mRNA əsaslı xərçəng peyvəndləri sahəsində qabaqcıllardır. Öz növbəsində, bu texnologiya yalnız Katalin Karikonun fundamental işi sayəsində mümkün olmuşdur. Meyenburq Mükafatı üç tədqiqatçının yüksək nailiyyətlərini tanıyır. Onların araşdırmaları gələcəkdə xərçəng xəstələrinin sağ qalmasını əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq".

Özlem Türeci və Uğur Şahin müxtəlif növ immunoterapiyaların və xərçəng peyvəndinin hazırlanmasında beynəlxalq səviyyədə tanınmış alimlərdir. Xərçəngə qarşı peyvənd hazırlamaq virusa qarşı peyvənd hazırlamaqdan çox fərqli bir məsələdir. Viruslar insanın immun sisteminə əsas etibarilə yaddır. Normal toxumadan əmələ gələn şiş hüceyrələri isə immun sisteminə onları sağlam hüceyrədən ayırmağa imkan verən yalnız bir neçə xərçəng xarakterik xüsusiyyətləri daşıyır. Onilliklər ərzində apardıqları araşdırmalar nəticəsində Türeci və Şahin immunitet sistemini aktivləşdirməyə qadir olan bu cür xüsusiyyətləri müəyyən etməyə müvəffəq olublar.

Uğur Şahin və Özlem Türeci elmi nailiyyətlərinə görə artıq bir sıra mükafatlara, o cümlədən Almaniyanın Federal Prezidenti tərəfindən verilən Paul Ehrlich və Ludwig Darmstaedter (2022) mükafatına layiq görülüblər. 2020-ci ildə hər ikisi "Financial Times" tərəfindən "İlin adamı" seçiliblər. 2021-ci ildə Almaniya Federativ Respublikasının "Xidmətlərə görə" ordeninin Böyük Xaçı (ulduzlu) ilə təltif ediliblər. Katalin Kariko ilə birlikdə Türeci və Şahin 2022-ci ildə Texniki və Elmi Tədqiqat üzrə Avstriya Şahzadəsi Mükafatını alıblar.

Meyenburq Fondu bu mükafatı 1981-ci ildən təltif edir. Normal olaraq hər il xərçəng tədqiqatında görkəmli nailiyyətlərə görə təqdim edilən mükafat Almaniyada ən yüksək elm mükafatlarından biridir.

Bu mükafatın əhəmiyyəti həm də çoxsaylı Meyenburq mükafatı laureatlarının artıq Nobel mükafatına layiq görülməsində əks olunur: Endryu Fayr, Meyenburq laureatı 2002 (Tibb üzrə Nobel mükafatı 2006), Elizabeth Blackburn, Meyenburg laureatı 2006 (Tibb üzrə Nobel mükafatı, 2009), Shinya Yamanaka, Meyenburq laureatı 2007 (Tibb üzrə Nobel mükafatı 2012), Stefan Hell, Meyenburq laureatı 2011 (Kimya üzrə Nobel mükafatı 2014).

**Oruc MUSTAFAYEV**

# "Rəqəmsal aqronomlar"

Azərbaycan təhsilinin dünyanın aparıcı təhsil sistemləri səviyyəsinə çatdırılması "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də əsas istiqamətlərdən biri kimi göstərilib. Bu səbəbdən müasir təhsil sistemində şagirdlərin elmi-texniki biliklərinin yüksəlməsi, robototexnika, dron texnologiyası sahəsinə meyillərinin artması olduqca vacib məsələlərdən biridir.



Qrant müsabiqəsinin qalibi olan layihə şagirdlərdə dron texnologiyaları ilə əlaqəli olan fənlərə marağı artırıb

Elm və Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə VI qrant müsabiqəsi"nin fərdi kateqoriya üzrə qalib layihəsi olan "Rəqəmsal aqronomlar"ın əsas məqsədi şagirdləri elmi-texniki istiqamətlərdə fəaliyyətlərə cəlb etmək, dron texnologiyası ilə yaxından tanış etmək, 3D dizayn hazırlayıb çap edərək aqrotexniki təyinatlı dron maketləri hazırlamaq, bu maketləri əkin sahələrində sınaqdan keçirərək fermerlərə nümayiş etdirmək idi. Layihənin icrası müddətində Cəlilabad rayonunun müxtəlif məktəblərindən 25 şagird seçilərək təlimlərə cəlb olunub və 30 saatlıq təlim müddətində TinkerCad proqramını, 3D çap etməyi, dron proqramlaşdırmanı öyrənib. Layihə müddətində iştirakçı şagirdlər üçün 4 günlük payız düşərgəsi təşkil olunub. Düşərgə müddətində Cəlilabad, Masallı, Lənkəran fermerləri ilə görüşlər keçirilib, çay plantasiyasına, kartof, üzüm, çiyələk sahələrinə, Lənkəran şəhəri 7 nömrəli tam orta məktəbdə yerləşən STEAM mərkəzinə, Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinə səfərlər edilib. Şagirdlər görüşlərdə fermerlərə hazırladıqları aqrotexniki təyinatlı dronlarını təqdim edərək, onların kənd təsərrüfatındakı əhəmiyyətindən danışıblar. Layihə iştirakçılarından seçilmiş "Rəqəmsal aqronomlar" komandası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə "STEAM Azərbaycan" layihəsi çərçivəsində 5-9 dekabr 2022-ci il tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən SAF (STEAM Azerbaijan Festival) 2022 festivalında "İnnovativ sərgi" kateqoriyası üzrə "Gələcəyin aqronom şəhəri" layihəsini təqdim ediblər. Komanda festivalda ziyarətçilərin marağına səbəb olub, təltifetmə mərasimində kuboka, diploma və hədiyyələrə layiq görülüb. Festivalda iştirak edən komanda üzvləri Lənkəran-Astara Regional Təhsil İdarəsinin rəhbərliyi tərəfindən də Fəxri Fərmanla təltif olunub. Layihə təlimləri bitdikdən sonra "Ən yaxşı dron dizaynı" müsabiqəsi elan olunub. Layihənin bağlanış mərasimində şagirdlərin əl işlərindən ibarət sərgi keçirilib. Daha sonra müsabiqə qaliblərinə diplomlar verilib.

Qeyd edək ki, layihə şagirdlərdə dron texnologiyaları ilə əlaqəli olan fənlərə, yəni fizika, riyaziyyat, informatika-proqramlaşdırma və digər fənlərə marağı artırıb və gələcək dövrdə bu istiqamətdə nəticələrinin yüksəlməsinə də yardımçı ola biləcək.

**Elçin ABBASOV,**
*Layihə rəhbəri, Cəlilabad rayonu Alar kənd 2 nömrəli tam orta məktəbin fizika-riyaziyyat müəllimi, V və VI qrant müsabiqələrinin qalibi*

## Yeni nəşrlər




"Azərbaycan elmi və təhsili müasir ideyaların, məhsuldar tədqiqat üsullarının, səmərəli axtarışların generatoruna çevrilməlidir".

**Heydər ƏLİYEV**

**Söz önü:** Məzmun və mündəricə baxımından elm və tədris fənninin vəhdətini təmin edən, pedaqoji fəaliyyətin söz və hikmət dünyasını zənginləşdirməyə rəvac verən pedaqogika hamı üçün elmdir. Onun bəhrəsindən ailə, məktəb, ictimaiyyət və istehsalat birlikləri əlbir fəaliyyət əsasında, ənənə və müasirlik nümunəsində həmişə aktual, peşəkar mənada faydalı bir mənbə olaraq ideal nailiyyətlər uğrunda mübarizə yollarında qiymətli mədəni irs kimi istifadə etmişlər. Pedaqogikanın hamı üçün elm olduğunu sübut etməyin düsturnamələri çoxdur. Gündəlik problemlərdən tutmuş, həlledici həyat hadisələrinə qədər onun "möcüzəsindən" hər zaman insan övladı faydalanmış, öz peşəkarlığını bu nəcib və şərəfli elmin prinsipləri zəminində mükəmməlləşdirmişdir. Məktəb və pedaqoji fikir tarixində keçmişdən bizə miras qalan milli-mənəvi irsin, ümumbəşəri dəyərlər sisteminin cəmiyyət həyatında oynadığı möhtəşəm xidmətin insan şəxsiyyətini formalaşdırmaqda bu qüdrətli elmin qaynaqlarından, sanballı məxəzlərindən istifadə təcrübəsi həmişə orijinal və novator ideyalarla ehtiva olunmuşdur. Pedaqogika əvəzolunmaz dərəcədə həyati məzmun daşıyaraq, insanda iradə tapmaqda, böyüməkdə olan nəslin ideya-mənəvi hazırlığında da yetərincə böyük rol oynamışdır. Xüsusən, bu elm klassik fikir mücahidlərimizin ideyalarından təşnə tapan öyüd və nəsihətlər yolu ilə milli yaddaşımıza maarifləndirici savad təlimi fütuhatı bəxş etmişdir.

# Pedaqogika hamı üçün elmdir

Qətiyyətlə demək olar ki, pedaqogikanın hamı üçün elm olduğunu təsdiqləyən fikir və mülahizələr bütün tarixi dövrlərdə öz mötəbərliyini saxlamış, zamanın bütün dolaylarında sosial-mədəni inkişaf platforması üçün möhkəm təməl bazasına çevrilmişdir. Onun bir elm olaraq güc və siqləti geniş mənada, proqnozlaşdırma nəzəriyyəsi və praktikası ilə hasilə gəlirsə, dar mənada tutumu isə bu sahə üçün intensiv amil olan qanun və qanunauyğunluqların düzgün müəyyənləşdirilməsindən, bu yolda insanın tərbiyəsini, təhsilini, psixoloji inkişafını təmin edib aktivləşdirməyin təməlini qoymaqdan boy alır.

Pedaqogika, həm də ictimai-humanitar elm sahəsi olduğundan o, arzulanan bütün sferalarda ictimai inkişaf proseslərini sürətləndirmiş, insan şəxsiyyətinin formalaşmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Bu kontekstdən bütün xalqlar arasında müəyyən təcrübəyə, multikultural keyfiyyətlərə, adət və vərdişlərə yiyələnən, əsl insan yetişdirməyin mənəvi keyfiyyətlər sistemini müəyyənləşdirən pedaqogika ümumxalq və ümumdövlət səviyyəli sosial-mədəni dəyərlərin pardaqlanması üçün də başlıca zəmin olmuşdur.

Bu qədim elmin inkişaf dinamikasını nəzərdən keçirərkən bir daha yəqinliklə əmin olursan ki, hər bir insanın şəxsiyyət kimi püxtələşməsi üçün mövcud təbii potensialı vardır. Yəni bu elm hamının hər sahədə real bilik və bacarıqlarını, intellekt səviyyəsini və yüksək zəka mədəniyyətini cilalamaqda aparıcı yadro olub, daima uzaq hədəflənməyə tuşlanmışdır. Odur ki, mənbəyini ailə, məktəb və ictimaiyyət birliyindən, məzmununu milli, ümumbəşəri və dini-mənəvi dəyərlər inteqrasiyasından, metodologiyasını isə insan, təbiət və cəmiyyət vəhdətindən götürən pedaqogika bu prioritet istiqamətləri bütün tarixi mərhələlərdə perspektiv nəticələrlə qoruyub saxlamışdır.

Müasir anlamda pedaqoji proses haqqında elm olan pedaqogika təlim-tərbiyənin qanunauyğunluqlarını və prinsiplərini mənimsəməkdə ailəyə, məktəbə və ictimaiyyətə səmərəli texnologiyalardan istifadə yolu ilə öz təsirini göstərir, bu işdə müəllimə, valideynə və digər sosial zümrəyə öz dəstək və mənəvi yardımını genişləndirməkdə yeni münasibətlər sistemi qərarlaşdırır. Cəmiyyətin inkişaf tərəqqisində məhz pedaqogika öz mütərəqqi təsirini mütəmadi olaraq təkmilləşdirməklə bu prosesin daha sürətlə getməsinə rəvac verir. Həmin istiqamətdə təşəkkül tapan pedaqogika elmində isbat olunmuş məsələləri fənn təlimi məzmununa gətirmək səyi də uğurlu və nəcib təşəbbüs sayılmalıdır.

...Elə bu günlərdə işıq üzü görən "Ümumi pedaqogika" adlı dərs vəsaitində də insan arzuları və istəkləri ilə hasilə gəlmiş kitabda pedaqoji əfkarımız üçün çox dəyərli nümunələr öz əksini tapmışdır. Məhsuldar fəaliyyətin nəticəsi olaraq işıq üzü görmüş bu kitabın araya-ərsəyə gəlməsində böyük bir yaradıcı kollektivin missiyasından ürəkdolusu danışmaq olar. Bu istiqamətdə pedaqoji fakt və hadisələrin elmi təhlilini ənənə və müasirlik vəhdətindən ümumiləşdirən kitabın "dərs vəsaiti" statusu ilə oxucuya təqdim olunması da yüksək peşəkarlığın və müdrik yanaşmanın nəticəsidir. Bu fundamental tədqiqatın hazırlanmasında, strateji hədəflərinin müəyyənləşdirilməsində xüsusən, Azərbaycan Universiteti ilə Bakı Elm və Təhsil Mərkəzinin, Bakı Biznes Universitetinin, Təhsil İnstitutunun yüksək səy və qayğısını böyük qürur hissi ilə qeyd etmək lazımdır.

"Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24 noyabr 2008-ci il tarixli 1266 saylı əmri ilə təsdiq edilmiş, Azərbaycan Universiteti, Bakı Biznes Universiteti, Gəncə Dövlət Universitetinin metodik Şuraları tərəfindən bəyənilən, Naxçıvan Müəllimlər İnstitutu və Azərbaycan Təhsil İnstitutu tərəfindən tövsiyə edilən "Pedaqogika", "Pedaqogika tarixi", "Müqayisəli pedaqogika", "Korreksiya pedaqogikası", "Didaktika", "Tərbiyəşünaslıq" adlı dərslik və dərs vəsaitləri əsasında hazırlanmışdır".

Kitabın elmi redaktoru Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, pedaqogika üzrə elmlər doktoru, professor, mərhum Oruc Həsənli; rəyçiləri Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Akademiyanın akademiki Fərrux Rüstəmov, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim Akif Abbasov, psixologiya üzrə elmlər doktoru, professor Ramiz Əliyev, pedaqogika üzrə elmlər doktoru, professor Seyran Mirzəyev və redaktoru Suriyyə Sadıqova olan dərs vəsaitində pedaqoji elmlər sisteminə daxil olan məktəbəqədər pedaqogika, məktəb pedaqogikası, ali məktəb pedaqogikası, müqayisəli pedaqogika, musiqi pedaqogikası, korreksiya pedaqogikası sistem halında öz əksini tapır. Dərs vəsaitindən bakalavr və magistr pilləsində təhsil alanlarla yanaşı, elmi işçilər, doktorantlar, ali məktəb müəllimləri və elmi-tədqiqatla məşğul olan mütəxəssislər istifadə edə bilərlər.

Onu da qeyd edək ki, yaradıcılıq ampulasında öz dəsti-xətti, üslub manerası, professional səriştəsi, geniş spektrli intellekt səviyyəsi və dərin zəka mədəniyyəti olan həmkarımız, pedaqoji elmlər doktoru, professor Fərahim Balakişi oğlu Sadıqov tərtibat prinsipi baxımından yazdığı bütün əsərlərində kreativ düşüncəni, tənqidi təfəkkürü, bədii-estetik ümumiləşdirməni ön plana çəkməklə, fikir və mülahizələrində analitik təhlil yolunu, müqayisəli metodikanı, humanist pedaqogikanı yenilik ruhu ilə "Ümumi pedaqogika" bütövlüyündə ümumiləşdirmişdir.

Bir incə mətləbi də qeyd etmək yerinə düşər. Professor Fərahim Sadıqovun "Ümumi pedaqogika" yaratmaq ideyası məhz ilk olaraq onun təşəbbüsü və səyi ilə araya-ərsəyə gətirilmişdir. Pedaqoji aləmdə yüksək siqləti, yaradıcı fütuhatı olan müəllifin bu nəcib və şərəfli təşəbbüsü ona ölkə ictimaiyyəti arasında böyük nüfuz qazandırmışdır. Bunu ayrı-ayrı təlim-tərbiyə müəssisələrində keçirilən təqdimat və müzakirələr də bariz şəkildə nümayiş etdirir.

Ümumiyyətlə, mövcud elmlər sistemində unikal sahə olan pedaqogikanın yeni reallıqlarını dərk etməyin metodologiyasını və texnologiyasını çox yaxşı bilən kitab müəllifi "Ümumi pedaqogika" problematikasının qoyuluşunu, onun ümumişlək təsir parametrlərini zəngin faktoloji materiallar əsasında, tədqiqi axtarışlar yolu ilə arayıb-araşdırmış, pedaqoji fəaliyyət üçün zəruri olan sınaq-yoxlama testlərindən, təcrübi-eksperimental müşahidə reallıqlarından faydalanmaqla öz məqsədinə ciddi sosial-mədəni rakursdan nəzər-diqqət yetirmişdir. Müəllif bu münasibətlə çox haqlı olaraq qeyd edir ki, "Müstəqillik qazandığımız hazırkı şəraitdə yetişən nəslin bir şəxsiyyət kimi formalaşmasından, təlim-tərbiyə, təhsil, habelə məktəbin idarə olunmasından bəhs edən "Ümumi pedaqogika" adlı dərs vəsaiti pedaqoji kadr hazırlığı işi ilə məşğul olanlar üçün ən zəruri mənbələrdən biri kimi hesab olunur. Yeni üslubda hazırladığımız bu dərs vəsaiti əsasən çoxballı qiymətləndirmə, kredit bal sistemi və transfer üsulu ilə işləyən ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur. Sadəliyi, konkretliyi, lakonikliyi və elmi sanbalı ilə seçilən mövzuların hər biri çoxballı qiymətləndirmə sistemi üçün nəzərdə tutulan testləşdirmə mətnlərinin suallarına cavab vermək, tələbələrə kömək etmək baxımından önəmli sayılan dərs vəsaiti olmaqla bərabər, həm də ESSE yazmağa istiqamət vermək baxımından dəyərlidir".

Müəllif elmi axtarışlar yolu ilə "Ümumi pedaqogika"ya müncər olunan digər pedaqoji elmlər sisteminin mahiyyətini də yetərincə aşkarlamış, problemləri didaktik strukturlaşdırma və məntiqi ardıcıllıq baxımından yüksək effektiv nəticələrlə hasilə gətirmişdir.

Xüsusən, pedaqoji gerçəkliklərə istinad imkanları, tənqidi münasibət tərzi, müxtəliflik nəzəriyyələri müəllif tərəfindən yeni, innovativ çalarlarla təhlil-tərkib edilmişdir.

Kitabın hamı üçün aydın və anlaşıqlı bir zəmində olması da təqdirlidir. Bütövlükdə ümumi pedaqogikaya aid olan məfhumların, kateqoriyaların, anlayışlarn mahiyyətini açıqlamaq cəhdi müəllifin çox yüksək uğurudur. Bu yönümdən pedaqogikanı həm elm, həm də tədris fənni olaraq müqayisəli spektrdən təhlil etmək amalı da müəllif tərəfindən nəzərə alınmışdır.

Əlbəttə, əsərə daxil edilmiş interaktiv təlim üsulları, açıq fikir və mülahizə plüralizmi, distant təhsil, pedaqoji innovasiyalar, yeni pedaqoji texnologiyalar kimi aktual tendensiyaların vurğulanması da kitabın dəyərliliyini artırır.

Novator və orijinal ideyalara konseptual yanaşma, obyektiv təhlil etmə prinsipindən şərh verən müəllifin tənqidi mülahizələri də çox maraqlı və səmərəlidir. "Ümumi pedaqogika" tutumunda ənənəvi və müasir biliklənməyə rəvac verən yeni məsələlərin izahlı şərhi: Azərbaycan təhsilinin Qərb təhsilinə inteqrasiya olunması problemləri önəmli sayıldığı üçün bu sahədə mübahisələrin də yaranacağı istisna olunmur. Xüsusən "Didaktika"nın pedaqoji proses təcrübəsində məna tutumunu, onun gah nəzəriyyə, gah da tədris fənninin bir sahəsi kimi təqdim olunmasına olan münasibətlərdə, həmçinin təlimdə müqayisə üsulundan geniş istifadə olunmamasına aid tənqidi düşüncələrini dəyərli yanaşma mövqeyindən başa düşmək lazımdır. O, bu sahədə mövcud məsələyə birmənalı olaraq belə şərh verir: "Azərbaycanda didaktikanın inkişafı, təşəkkülündə yuxarıda adları çəkilən pedaqoq alimlərin, mütəfəkkirlərin ideyalarının, müddəalarının, tövsiyələrinin və konsepsiyalarının mühüm rolu olsa da onun bir müstəqil elm kimi formalaşması haqqında konkret bir fikir söyləmək olmaz. Çünki respublikamızda "Didaktika" həmişə pedaqogikanın bir bölməsi kimi təqdim edilmişdir. Baxmayaraq ki, 70-90-cı illərdə *(ötən əsrin - V.B.)* yeni başlamış əsrimizin əvvəlində rus alimləri məktəb didaktikasını, ali məktəb didaktikasını müstəqil elm sahəsi kimi formalaşdırmağa ciddi səy göstərmiş, hər iki sahəyə dair dərslik və dərs vəsaitləri hazırlamışlar. Maraqlısı odur ki, Moskvada didaktika sahəsində çap olunan əsərlər içərisində surdodidaktika, tiflodidaktika və oliqofren didaktikalarına da rast gəlmək olar".

Professor Fərahim Sadıqovun "Yeni nəşrlər" seriyasından olan "Ümumi pedaqogika" kitabı bütövlükdə bu elmin təşəkkülünü, milli yaddaşımıza verdiyi töhfəni birmənalı olaraq zənginləşdirməyə xidmət edir. İnanırıq ki, 7 bölmə və fəsildən ibarət "Ümumi pedaqogika" kitabı yüksək elmi-pedaqoji nəzəriyyələri ilə fərqlənən dərs vəsaitidir. Bu kitab uzunmüddətli pedaqoji müşahidələrin, psixoloji düşüncələrin məhsulu olaraq müasir model əsasında bütün təhsil-tərbiyə şəbəkələrində tətbiq olunmağa layiq qiymətli mənbə kimi qədirbilən oxucuların da stolüstü kitabına çevriləcəkdir.

Ən nəhayətdə, Azərbaycanın elm və təhsili yolunda əvəzedilməz rol oynayan "Ümumi pedaqogika" dərs vəsaiti bu qəbildən olan gələcək layihələrin hazırlanıb həyata keçirilməsində də öz möhtəşəm təsirini göstərəcəkdir.

Bunu isə bizdən həyatın özü tələb edir.

**Vidadi BƏŞİROV,**
*Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Naxçıvan Müəllimlər İnstitutu

## Fəlsəfə doktoru hazırlığı üzrə 2023-cü il üçün doktoranturaya və dissertanturaya qəbul

## ELAN EDİR:

Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığı üzrə 2023-ci il üçün qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261 s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2023-cü il üçündoktorant və dissertant hazırlığı üzrə qəbul planları" əsasında aparılır.

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Portal vasitəsilə müraciətlərin göndərilməsi 12 aprel 2023-cü tarixindən başlayır. 16 may 2023-cü il sənəd qəbulunun son tarixidir.

*Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər.* Qeydiyyatdan keçən vətəndaşların sənədləri Naxçıvan Müəllimlər İnstitutu üzrə təyin edilmiş şəxs tərəfindən yoxlanılıb təsdiq edilməlidir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər Xarici dil, Fəlsəfə və İxtisas fənlərindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən Xarici dil imtahanında keçid balını toplayan şəxslər Fəlsəfə fənnindən imtahana buraxılırlar. Fəlsəfə fənni üzrə məqbul alan şəxslər İxtisas fənni üzrə imtahanda iştirak etmək hüququ əldə edirlər.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalı və Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən Xarici dil imtahanında keçid balını toplamalıdırlar.

Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş, doktoranturaya qəbul olmaq istəyən şəxslər üçün Fəlsəfə fənni üzrə imtahan 4,5,6 sentyabr 2023-cü il tarixlərində, İxtisas imtahanı 11,12,13 sentyabr 2023-cü il tarixlərində ali təhsil müəssisəsində keçiriləcəkdir. İmtahanlarını müvəffəqiyyətlə vermiş namizədlər müsabiqə əsasında seçdikləri ixtisas üzrə doktoranturaya qəbul olunurlar.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

**Ünvan:** Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 2.
Naxçıvan Müəllimlər İnstitutu, Elmi hissə (otaq № 208)
**Əlaqə telefonları:** (+994 36) 544 04 29
**E-mail:** elmihisse@nmi.edu.az

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | | O cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 2 | | 2 | 1 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | 1 |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | 1 |
| | **Cəmi:** | **8** | | **8** | **3** |

** Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli əsaslarla aparılır.*

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

## 2023-cü il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul

## ELAN EDİR:

***Fəlsəfə doktoru proqramı üzrə***

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | doktorantura | | | dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 2211.01 | Bərk cisimlər fizikası | 1 | | 1 | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | 1 | 1 | | |
| 3340.01 | Elektrotexniki sistemlər və komplekslər | 1 | | 1 | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | |
| 5719.01 | Folklorşünaslıq | 1 | | 1 | |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi | 1 | | 1 | |
| **Cəmi** | | **7** | **1** | **6** | |

***Elmlər doktoru proqramı üzrə***

| İxtisasın şifri | İxtisasın adı | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | doktorantura | | | dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 2211.01 | Bərk cisimlər fizikası | 1 | | 1 | |
| **Cəmi** | | **1** | | **1** | |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

1. *Rektorun adına ərizə;*
2. *Kadrların şəxsi - qeydiyyat vərəqi;*
3. *Tərcümeyi-hal;*
4. *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
5. *İş yerindən xasiyyətnamə;*
6. *Əmək kitabçasından çıxarış;*
7. *Çap olunmuş elmi işlərin siyahısı;*
8. *"Fəlsəfə doktoru" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üçün);*
9. *Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və diploma əlavənin (bakalavr və magistratura təhsil pillələri üzrə) müvafiq qaydalarda təsdiq edilmiş surətləri ( xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil barədə sənədlərin tanınması haqqında şəhadətnamə);*
10. *Şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin **portal.edu.az** saytına daxil olmaqla, orada "Ali və orta ixtisas təhsil müəssisələrini tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçdikdən sonra sənədlərin kağız variantını şənbə və bazar günlərindən başqa hər gün səhər saat 9.00-dan 17.00-dək Sumqayıt Dövlət Universitetinin Doktorantura və magistratura şöbəsinə təqdim etməlidirlər.

**Sənəd qəbulu üçün son tarix 16 may 2023-cü il.**

Fəlsəfə fənni üzrə imtahan 4,5,6 sentyabr, ixtisas imtahanı isə 11,12,13 sentyabr 2023-cü il tarixlərində keçirilməsi planlaşdırılır.

**Ünvan:** Sumqayıt şəhəri, 43-cü məhəllə,
Əsas tədris binası, otaq № 243.
**Telefon:** (018)642-12-63

**REKTORLUQ**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

## 2023-cü ildə fəlsəfə doktoru proqramı üzrə doktoranturaya aşağıdakı ixtisaslar üzrə qəbul

## ELAN EDİR:

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | | O cümlədən | | |
| | | | əyani | qiyabi | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 1 | | 1 | |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | |
| 6214.01 | Kino, tele və digər ekran sənətləri | 1 | | 1 | |
| 6215.01 | Təsviri sənət | 1 | 1 | | |
| 6218.01 | Dekorativ tətbiqi sənət | 1 | | 1 | |
| | **Cəmi** | **5** | **1** | **4** | |

**2023-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı**

** Dissertant hazırlığı üçün adambaşı maliyyələşmə nəzərdə tutulmadığından dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli olacaq.*

**Qeyd:** Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya sistemi (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcək. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il 12 aprel tarixindən başlayacaqdır. Sənəd qəbulu üçün son tarix 16 may 2023-cü il.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

1. *Rektorun adına ərizə;*
2. *Kadrların şəxsi - qeydiyyat vərəqi;*
3. *Tərcümeyi hal;*
4. *2 ədəd foto şəkil (3x4 sm ölçüdə);*
5. *İş yerindən xasiyyətnamə;*
6. *Əmək kitabçasından çıxarış;*
7. *Çap olunmuş elmi işlərin siyahısı və ya referat;*
8. *Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və diploma əlavənin (bakalavr və magistratura təhsil pillələri üzrə) notarial qaydada təsdiq edilmiş surətləri (xarici ölkədə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil barədə sənədlərin tanınması haqqında şəhadətnamə);*
9. *Şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**Əlavə məlumat almaq üçün bu ünvana müraciət etmək olar:**
Bakı şəhəri, İnşaatçılar pr. 39.

**Telefon:** (012) 599-00-54 (daxili nömrə 130)

**REKTORLUQ**



# Tələbələr arasında futzal üzrə turnirə start verilib

Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş futzal üzrə turnirə start verilib.

Yarışlar Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə keçirilir.

20-si Bakı, 13-ü ölkənin digər şəhər və rayonlarında fəaliyyət göstərən ümumilikdə 33 ali və orta ixtisas təhsili müəssisəsinin komandalarının mübarizə apardığı yarışa mayın 2-də yekun vurulacaq.

Yarışlarda I, II, III yerləri tutan komandalar diplom, kubok və qiymətli hədiyyələrlə mükafatlandırılacaq. Çempionatda fərqlənən 3 tələbə-futbolçu isə "Ən yaxşı qapıçı", "Ən məhsuldar oyunçu", "Ən gənc oyunçu" nominasiyaları üzrə xüsusi mükafatla təltif olunacaq.

Qeyd edək ki, çempionatın keçirilməsində məqsəd Ümummilli Lider Heydər Əliyevin irsinin aşılanması, yerli ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzal idman növünün kütləviliyinin təmin edilməsi, beynəlxalq yarışlarda iştirak üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədlərin müəyyənləşdirilməsidir. Bununla yanaşı, ölkənin yeniyetmə, gənclərdən ibarət yığma komandalarına perspektivli tələbələrin seçiminin təminatı, ən güclü futzal komandasının müəyyən edilməsi, beynəlxalq turnirlərdə iştirak edəcək komandaların təyini və tələbələr arasında dostluq əlaqələrinin yaradılması da məqsədlər sırasındadır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3865 **Sifariş** 896

**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İsayeva Leyla Əmirsultan qızına verilmiş B-008084 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Yəhərçi Qazaxlar kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş İsmayılova Rəfiqə Gündüz qızına verilmiş B-197337 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Tap kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Satayev Jamşud Xanmurad oğluna verilmiş A-041085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2003-cü ildə Məmmədov Zamiq Rəfiağa oğluna verilmiş A-131218 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 20 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Ziyadova Mədinə Sabir qızına verilmiş A-118317 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Əliyeva Ədilə Eldar qızına verilmiş 766 nömrəli əsas təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 35 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Səmədov Fuad Rasim oğluna verilmiş B-449179 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universitet** tərəfindən 2005-ci ildə Hacıyeva Elnarə Tariyel qızına verilmiş BB-I-002689 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Üzeyir Hacıbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Konservatoriyası** tərəfindən 1984-cü ildə Mustafayeva Arzu Səfər qızına verilmiş Г-I-012696 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2019-cu ildə Seyidli Mirseyid Teyyub oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mustafaağalı kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Əlizadə Aqşin Çingiz oğluna verilmiş A-674138 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Kərimova (Mikayılova) Təhminə Mikayıl qızına verilmiş A-975049 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəb-liseyi 2002-ci ildə bitirmiş Şəmmədov Ruslan Əlikram oğluna verilmiş A-550776 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Dəyirmanlı kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Nuğayeva Səadət Mübariz qızına verilmiş B-632376 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Qaraağac kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Dəmirov Zaur Nəsir oğluna verilmiş 1145 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2007-ci ildə İbrahimov Emin Rəfael oğluna verilmiş B-085024 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Züvüç kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyev Hakim Həsənxan oğluna verilmiş B-122893 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2002-ci ildə Səfərov Emin Fərman oğluna verilmiş A-112405 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 35 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əfəndiyeva Leyla Məzahir qızına verilmiş E-505055 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Mehdiyeva Təranə Əli qızına verilmiş VB-001108 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2020-ci ildə Mahmudova Emilya Ramil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Aşağı Kürdmahmudlu kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Mirhüseynzadə Əyyam Xəyyam oğluna verilmiş E-244719 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** (indiki Azərbaycan Texniki Universitet) tərəfindən 1990-cı ildə Şəfiyev Eldar Atakişi oğluna verilmiş PB-042194 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2002-ci ildə Şəfiyev Eldar Atakişi oğluna verilmiş AB-I-080279 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 310 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Budaqov Elmin Ömər oğluna verilmiş E-444784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 194 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Teymurov Ceyhun Vladim oğluna verilmiş A-1623 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Zəhmətabad kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədli Xəyal İqbal oğluna verilmiş E-058405 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2019-cu ildə Quliyev Rəşad Ərşad oğluna verilmiş C-049852 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız saylır.

**Kəlbəcər rayon** 58 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Zakirli Azər Cəlil oğluna verilmiş A-367663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Qurbanova Gülay Musa qızına verilmiş A-139889 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2019-cu ildə Sadıqlı Şahin Oruc oğluna verilmiş C-032524 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş İsrəfilzadə Şaiq İlham oğluna verilmiş A-196417 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əlixanova Nəsibə Əli qızına verilmiş B-022563 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı - I kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Əzizova Əfsanə İsmayıl qızına verilmiş 230183 nömrəli attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Qurbanov Seymur Seyfulla oğluna verilmiş A-117501 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Ağayev Vamiq Sabir oğluna verilmiş BB-I-015319 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2008-ci ildə Hüseynov Əli Ramiz oğluna verilmiş B-132126 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Pedaqoji Texnikumu** tərəfindən 2008-ci ildə Rüstəmova Natəvan Hafiz qızına verilmiş BB-II-078479 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Musiqi Akademiyası** tərəfindən 2008-ci ildə Həsənova Leyla Aşur qızına verilmiş B-114332 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Dayıkənd kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Əhmədov Təbriz Niyaməddin oğluna verilmiş E-293412 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı Tibb Kolleci** tərəfindən 2019-cu ildə Mirzəyeva Azadə Azər qızına verilmiş AA-121572 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Cəfərli Bənövşə Müşviq qızına verilmiş A-948827 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** İtitala kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Abdullayeva Günay Oruc qızına verilmiş A-627892 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Kür qəsəbə tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Hüseynov İlkin Adil oğluna verilmiş C-105177 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Sabirkənd kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş İbrahimov Rüzgar Ələsgər oğluna verilmiş E-082936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt 3 nömrəli Peşə Liseyi** tərəfindən 2013-cü ildə Qarayev Orxan Vilayət oğluna verilmiş A-028987 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin** (keçmiş Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı üzrə) tərəfindən 2009-cu ildə Azayeva Gülnar Azər qızına verilmiş B-140446 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**13 nömrəli Bakı Peşə Liseyinin** bazasında Bakı Kompüter Peşə Liseyi tərəfindən 2015-ci ildə Qəmbərov Tariyel Xəqani oğluna verilmiş A-397567 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ukrayna Milli Mülki Müdafiə Universiteti** tərəfindən 2013-cü ildə Nadirov Fuad Fərəməz oğluna verilmiş Dİ-036180 nömrəli bakalavr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Hacıyev Rahib Yaqub oğluna verilmiş E-007608 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Əliyev Aydın Rəfayıl oğluna verilmiş C-023797 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2015-ci ildə Hüseynzadə Ruslan Qaçay oğluna verilmiş A-063444 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2017-ci ildə Müseyibova Vəfa Rövşən qızına verilmiş A-110735 nömrəli bakalavr fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Hacıəlibəy kənd tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Nurəliyev Səfərəli Ramazan oğluna verilmiş A-300307 nömrəli ümumi orta təhsil haqqında attestat və 2015-ci ildə verilmiş A-433683 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Danyeri kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Quliyeva Qumral Oruc qızına verilmiş B-506992 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 1990-cı ildə bitirmiş Mirzəyev Etibar Heybətağa oğluna verilmiş AK-664309 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Neymətli Nəsir Fəxrəddin oğluna verilmiş A-107122 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 30 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Abışov Fuad Zakir oğluna verilmiş 124492 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Zahidov Zaur Fəxrəddin oğluna verilmiş A-258096 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qasımzadə Çərkəz Müşviq oğluna verilmiş E-056184 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** N.Rəfibəyli adına 43 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Fərid Mahir oğluna verilmiş E-472224 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ş.Saabov adına Qaraməryəm kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Babayeva Bahar Zabil qızına verilmiş B-562185 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Məktəbəqədər Pedaqoji Texnikumu** tərəfindən 1998-ci ildə Məmmədli Xəyalə Məmməd qızına verilmiş AB-II-023393 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təklə kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Kərimova (Bəşirova) Ruhəngiz Əlipaşa qızına verilmiş B-893463 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Nərimankənd kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Cəfərova (Nəsirova) Turanə Balayar qızına verilmiş 478495 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Kafari Səbinə Fariz qızına verilmiş C-523144 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Muradxan kənd tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Gülmalıyev Kənan Qənbər oğluna verilmiş A-094571 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Quşçu kənd tam orta məktəbi 1990-cıildə bitirmiş Bağırov Şahin Cavanşir oğluna verilmiş A-084460 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Viləş kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Vəliyeva Sevil Fərhad qızına verilmiş A-341710 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Kövər kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Davudova Mətanət Bəxtiyar qızına verilmiş A-115645 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş İsmayılov Novruz Qurban oğluna verilmiş A-217208 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin sektor müdiri İlahə Rəsulovaya anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və kollektivi liseyin rus dili müəllimi Aysel Bağırovaya atası

**NATİQ BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bu qarşılıqlı əlaqə bilavasitə psixoloji xidmətin vəzifələrinin həllinə kömək etməklə yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsinə də təsir göstərir. Şagirdlərə fərdi yanaşma məktəbin psixoloji və metodik xidmətlərinin kəsişmə zonası sayıla bilər. Eyni zamanda, onların fəaliyyətlərinin əlaqələndirilməsi, hər iki xidmətin iş perspektivlərinə və onun həyata keçirilməsi yollarına ümumi baxışı çox vacibdir.Psixoloq şagirdlərin özünüdərk, ünsiyyət problemlərinin həllində, peşə seçimində və s. köməklik göstərə bilər. Eyni zamanda o, valideynlərə ailədə uşaq tərbiyəsi ilə bağlı məsləhətlər verə və maarifləndirmə işi apara bilər. Müəllimlər də psixoloqun köməyinə ehtiyac duyan qrupa aiddir. Onların müxtəlif qrup şagirdlərlə işləmək üçün optimal şəraitin yaradılması istiqamətində daim psixoloqdan məsləhət almağı vacibdir. Beləliklə, məktəbdə tədris prosesinin səmərəli həyata keçirilməsi üçün məktəbdə psixoloji xidmətin düzgün təşkili olduqca vacib məsələdir.

Məktəbdə psixoloji xidmətin təşkili və keyfiyyəti ilə bağlı cari vəziyyətin öyrənilməsi üçün Azərbaycan Respublikasının Təhsil İnstitutu təsadüfi seçmə üsulu ilə Bakı şəhərinin 20 ümumtəhsil məktəbində tədqiqat aparıb. Qeyd edək ki, məktəblərin 10-u mərkəzi, 10-u isə mərkəzdənkənar məktəblərdir. Tədqiqata 1888 şagird, 198 müəllim, 35 psixoloq, 199 valideyn, 20 direktordan ibarət heyət cəlb olunub.

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, məktəbdə psixoloji xidmətin keyfiyyətinin artırılması üçün məktəb rəhbərliyi, pedaqoji heyət və psixoloq əməkdaşlığı istiqamətində müəyyən işlər aparılmalıdır. Eyni zamanda, sorğu nəticəsində əldə edilmiş ziddiyətli yanaşmalar valideyn, müəllim, psixoloq və şagirdlərin bir-biri ilə əlaqələnməsində müəyyən problemlərin olduğunu göstərir.



# Məktəbdə psixoloji xidmət: səlahiyyət və məsuliyyət faktoru

## Aparılan tədqiqatın nəticələri nələri üzə çıxartdı?




Şəkil 1.




Şəkil 2.




Şəkil 3.




Şəkil 4.




Şəkil 5.




Şəkil 6.

⇦ Əvvəli səh.1

Tədqiqatla bağlı bəzi nəticələri aşağıdakı kimi təsnifatlaşdırmaq olar. Sorğuda iştirak edən psixoloqların 49%-i məktəbdə psixoloji xidmət göstərmək üçün yaradılan şəraiti yüksək, 51% -i isə qənaətbəxş hesab edir.

Məktəbdə psixoloji mühiti nə dərəcədə əlverişli hesab edirsiniz sualını direktorların 10%-i aşağı, 35% -i qənaətbəxş, 60%-i yüksək qiymətləndirir **(şəkil 1.)**.

Məktəbdə əlverişli psixoloji iqlimin yaradılmasında psixoloqların rolu araşdırılarkən məlum olub ki, psixoloqların 40%-i məktəbdəki sağlam psixoloji iqlimin yaradılmasında özünün rolunu yüksək hesab edir. 60%-nin fikrincə psixoloji iqlimin yaradılması fəaliyyəti qənaətbəxşdir. 3% psixoloq məktəbdə sağlam psixoloji iqlimin yaradılmasında öz rolunu kafi qiymətləndirir. Məktəb direktorlarının 75%-i, müəllimlərin isə 72%-i əlverişli psixoloji iqlimin yaradılmasında psixoloqların rolunu yüksək qiymətləndirirlər **(şəkil 2.)**.

Sual doğuran məsələlərdən biri budur ki, psixoloqlar onlar üçün yaradılan şəraitdən, əsasən, razı olduqlarını ifadə etsələr də, əlverişli psixoloji mühitin yaradılmasında özlərinin əməyini direktor və müəllimlə müqayisədə daha aşağı qiymətləndiriblər.

Tədqiqat zamanı hər hansı problemlə qarşılaşanda şagirdlərin 17%-i məktəb psixoloquna daha çox müraciət etdiyini qeyd edib, 21% şagirdin psixoloqa müraciət göstəricisi aşağıdır, 21% şagird isə çətinlik çəkərkən psixoloqa, ümumiyyətlə, müraciət etmədiyini bildirib. Fikrimizcə, müəllim, valideyn və şagird qruplarında yaşanılan problem situasiyalar zamanı psixoloqa müraciət sayının aşağı olması bu mədəniyyətin inkişaf etdirilməsinə ehtiyacın olduğunu göstərir.

Psixoloqların 80%-i şagird, müəllim, valideyn qrupları arasında daha çox şagird qrupunda problemlərin olduğunu qeyd edib. Məzmun baxımından problemlər daha çox özünüdərketmə, özünütərbiyə ilə əlaqədardır. Psixoloqlar ikinci qrup olaraq müəllim, pedaqoji heyətlə işi qeyd ediblər. Rəyi soruşulan psixoloqların 63%-i müəllim-şagird konfliktləri ilə bağlı mütəmadi işin aparıldığını qeyd edib. Valideyn heyəti ilə işləyən psixoloqların 46%-i apardığı işin keyfiyyətini qənaətbəxş hesab edir. Psixoloqlar daha çox kiçikyaşlı məktəbli qrupunun valideynləri ilə əməkdaşlıq edirlər **(şəkil 3.)**.

Tədqiqat zamanı 87% şagird məhz daha çox çətin hallarda psixoloq köməyinin faydalı olduğunu düşünür. Psixoloqa müraciət edən 33% şagird psixoloq xidmətindən razı qaldığını, 12% şagird isə razı qalmadığını bildiriblər. 23% şagird qismən razı qaldığını, 34% şagird isə ümumiyyətlə, psixoloqa müraciət etmədiyini bildirib. Lazım gələrsə, yenidən psixoloqa müraciət edərsiniz sualına 29% şagird öz müsbət münasibətini bildirib **(şəkil 4.)**.

Tədqiqat göstərdi ki, mərkəzi məktəblərdə psixoloq-şagird nisbəti 1/980, mərkəzdənkənar məktəblərdə 1/742 kimidir. Bu, o deməkdir ki, psixoloq-şagird nisbəti nə qədər yüksəkdirsə, psixoloji xidmətin keyfiyyəti bir o qədər yüksəkdir. Keyfiyyət göstəricisi kimi psixoloqa müraciət sayı və bu müraciətdən məmnunluq göstəricisi göstərilir. Mərkəzi məktəblərdə psixoloqa müraciət etməmək %-i mərkəzdənkənar məktəbləri ilə müqayisədə daha yüksəkdir. Eyni zamanda müraciət sayı artdıqca, müraciətdən məmnunluq göstəricisi artır.

Direktor (50%) və müəllimlər (53%) müəllim-şagird konfliktində psixoloqun köməyini psixoloqun öz fikrindən (62%) fərqli olaraq aşağı qiymətləndirirlər. Şagird-şagird konfliktində də psixoloqlar öz fəaliyyətlərini daha yüksək (82%) qiymətləndirirlər. Müəllimlərin 52%-i, direktorların 60%-i şagird-şagird konfliktində məktəb psixoloqunun köməyini faydalı hesab edir. Müəllim-valideyn problemində isə psixoloqlar öz fəaliyyətlərini daha zəif (35%), direktor (50%) və müəllimlər (46%) isə bu köməyin daha səmərəli olduğunu düşünürlər **(şəkil 5.)**.

Gələcək peşə seçimi ilə bağlı şagirdlərin 31%-i psixoloqa müraciət etmədiyini, 38%-isə müraciət zamanı psixoloq məsləhətindən razı qaldığını qeyd ediblər. Psixoloqların 87% -i isə peşə seçimi ilə bağlı şagirdlərlə apardığı işi yüksək qiymətləndirib. Fikrimizcə, peşə seçimində şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyi haqqında psixoloqun maarifləndirmə işini diqqət mərkəzində saxlanması dünya təcrübəsində nə qədər geniş yayılsa da (Yeşil Yaprak, 2020.) (M.Çakır, 2003.) respublikamızda bu istiqamətdə hələ də psixoloqa müraciət səviyyəsi qənaətbəxş deyil **(şəkil 6.)**.

Aparılan tədqiqatın nəticələri aşağıdakı fikirləri formalaşdırmışdır:

Məktəbdə psixoloqun şəxsi kabinetinin, şagirdlərlə işləmək üçün müvafiq saatının və üzərinə qoyulan məsuliyyətə uyğun müvafiq səlahiyyətinin olması psixoloji xidmətin keyfiyyətini şərtləndirən mühüm amildir.

Məktəbdə sağlam psixoloji iqlimin yaradılması müəllim-şagird-psixoloq əməkdaşlığı ilə yanaşı, direktor-psixoloq-müəllimin məqsədyönlü fəaliyyətindən asılıdır. Məktəb rəhbərliyinin pedaqoji kollektivdə psixoloji işin təşkili ilə bağlı maarifləndirmə işini aktual saxlaması və ona bilavasitə dəstək verməsi məktəbdə sağlam psixoloji mühit üçün zəmin yaradar.

Məktəb rəhbərliyi tərəfindən məktəb psixoloqlarının vəzifə və səlahiyyətləri ilə bağlı pedaqoji kollektivdə maarifləndirmə işlərinin aparılması üçün şəraitin yaradılması müəllim-psixoloq əməkdaşlığında səlahiyyət bölgüsünün obyektiv olmasına, sağlam sosial - emosional mühitin formalaşmasına öz təsirini göstərəcəkdir.

Mərkəzi məktəblərlə müqayisədə mərkəzdənkənar məktəblərdə psixoloq-şagird nisbətinin yüksək olması, psixoloji xidmətin keyfiyyətinin yüksəlməsinə zəmin yaradır. Psixoloqa müraciət sayı və bu müraciətdən məmnunluq psixoloji xidmətin keyfiyyət göstəricisidir. Məktəbdə psixoloji xidmətin keyfiyyətinin yüksəldilməsi üçün psixoloq-şagird nisbətinin yüksəldilməsi məqsədəuyğun hesab edilir.

Müəllim, valideyn və şagird qruplarında yaşanılan problem situasiyalar zamanı psixoloqa müraciətin az olunması təhsil mühitində psixoloqa müraciət mədəniyyətinin inkişaf etdirilməsinə ehtiyac olduğunu göstərir.

Peşə seçimində şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması ilə bağlı şagird və müəllim qruplarında mütəmadi maarifləndirmə işi aparılmalıdır. Bu maarifləndirmə işində peşələrin psixoloji xüsusiyyətləri barədə şagirdlərə məlumat verilməli, davranış xüsusiyyətləri barədə təsəvvür formalaşdırılmalıdır.

**Elxan BƏYLƏROV,**
*psixologiya elmləri doktoru*
*Təhsil İnstitutunun Psixologiya və xüsusi təhsil şöbəsinin müdiri*

**Psixoloqların 40%-i məktəbdəki sağlam psixoloji iqlimin yaradılmasında özünün rolunu yüksək hesab edir. 60%-nin fikrincə psixoloji iqlimin yaradılması fəaliyyəti qənaətbəxşdir. 3% psixoloq məktəbdə sağlam psixoloji iqlimin yaradılmasında öz rolunu kafi qiymətləndirir.**

**Psixoloqa müraciət edən 33% şagird psixoloq xidmətindən razı qaldığını, 12% şagird isə razı qalmadığını bildiriblər. 23% şagird qismən razı qaldığını, 34% şagird isə ümumiyyətlə, psixoloqa müraciət etmədiyini bildirib.**

**Psixoloqların 63%-i müəllim-şagird konfliktləri ilə bağlı mütəmadi işin aparıldığını qeyd edib. Valideyn heyəti ilə işləyən psixoloqların 46%-i apardığı işin keyfiyyətini qənaətbəxş hesab edir.**

**Məktəb direktorlarının 75%-i, müəllimlərin isə 72%-i əlverişli psixoloji iqlimin yaradılmasında psixoloqların rolunu yüksək qiymətləndirirlər.**

**Məktəbdə psixoloji mühiti nə dərəcədə əlverişli hesab edirsiniz sualını direktorların 10%-i aşağı, 35% -i qənaətbəxş, 60%-i yüksək qiymətləndirir.**

**Psixoloqların 49%-i məktəbdə psixoloji xidmət göstərmək üçün yaradılan şəraiti yüksək, 51%-i isə qənaətbəxş hesab edir.**

**Psixoloqların 80%-i şagird, müəllim, valideyn qrupları arasında daha çox şagird qrupunda problemlərin olduğunu qeyd edib.**

**Mərkəzi məktəblərdə psixoloq-şagird nisbəti 1/980, mərkəzdənkənar məktəblərdə 1/742 kimidir.**